


# GÜNDOĞAR

24 yanvar 2015-ci il № 1-2-3-4 (6554) İCTİMAİ-SİYASİ QƏZET Qəzet 1931-ci ildən çıxır. e-mail: gundogarqazeti@box.az

Təsisçilər: Neftçala Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi


# QANLI YANVAR FACİƏSİNİN 25-Cİ İLDÖNÜMÜ ÖLKƏMİZİN HƏR YERİNDƏ ÜMUMXALQ KƏDƏRİ İLƏ QEYD OLUNDU

**Tarixdə elə hadisələr var ki, onlar qələmlə yox, qanla yazılırlar. Buna görə də belə hadisələr heç vaxt unudulmurlar, xalqların, millətlərin qan yaddaşına çevrilirlər. Düz 25 il bundan qabaq, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecədə baş verən qanlı faciə də belə hadisələrdəndir. Qabaqcadan təlim keçərək hazırlanmış, psixoz vəziyyətinə gətirilmiş əsgərlər heç bir vəhşi hərəkətlərdən çəkinməyərək azadlıq, müstəqillik arzusu ilə alışıb yanan əliyalın xalqa qarşı sözün əsl mənasında qəddarlıq nümayiş etdirmişdilər. Gözlərini qan örtmüş vəhşilər qarşılarına çıxan hər kəsi — qocanı da, qadını da, uşağı da eyni amansızlıqla qətlə yetirmişdilər. Hətta can verən, ölümlə qalım arasında çarpışan yaralıların köməyinə tələsən "təcili yardım" maşınlarını güllələbaran etməkdən də çəkinməmişdilər. Halbuki, dünyanın hər yerində qanlı müharibələrdə belə həmin maşınlara atəş açmırlar, əksinə, onlara yol göstərirlər. Bakının küçələrindəki əzilmiş, xurd-xəşil edilmiş çoxlu sayda maşınlara, eybəcər hala salınmış insanlara, qan gölməçələrinə baxanda adama elə gəlirdi burada amansız döyüş gedib. Təpədən dırnağadək silahlanmış iki böyük qüvvə üz-üzə gəlib. Əslində isə belə deyildi. Minlərlə silahsız, əliyalın insanlar küçələrə çıxaraq öz azadlıqlarını istəyirdilər, haqsızlığa, ikiüzlülüyə son qoyulmasını tələb edirdilər.**

**O gecə imperiyanın başında dayananlar məqsədlərinə nail olsalar da, xalqımızın yenilməzliyindən heyrətə gəldilər. Anladılar, başa düşdülər ki, azadlıq arzusu ilə alışıb yanan bu xalqı əsarətdə saxlamaq mümkün olmayacaq, o tezliklə öz müstəqilliyinə nail olacaqdır.**

**Bu doğrudan da belə oldu. Uzun sürən imperiya əsarətindən qurtulan xalq nəhayət ki, öz azadlığına qovuşdu. Ölkəmiz müstəqillik əldə etdi. Həmin qanlı hadisələrdən 25, müstəqilliyimizin bərpasından isə 24 il ötür. Qısa zaman kəsiyində Azərbaycan sürətli inkişaf yolu keçərək bu gün dünyanın ən irəlidə gedən ölkələrindən birinə çevrilmişdir.**

**Qədirbilən xalqımız, millətimiz Vətənin azadlığı, müstəqilliyi uğrunda canlarından keçməyi bacaranları heç vaxt unutmur, onları həmişə böyük ehtiramla, minnətdarlıq hissi ilə yad edir, ruhları qarşısında baş əyir. Ötən illərdə biz bunun daim canlı şahidləri olmuşuq. Yüz minlərlə, milyonlarla insanlar "Şəhidlər xiyabanı"na gələrək azadlıq mücahidlərinə özlərinin dərin hörmət və ehtiramlarını bildirmişlər.**

**Faciənin 25-ci ildönümü də ümumxalq kədəri ilə qarşılandı. Tarixi ildönümü ilə əlaqədar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri cənab Ramiz Mehdiyevin sərəncamı ilə təsdiq edilmiş tədbirlər planında istər ölkə daxilində, istərsə də ölkə xaricində görüləcək işlər hərtərəfli müəyyənləşdirilmişdi. Tədbirlər planına əsasən şəhid ailələrinə humanitar yardım verilmiş, Şəhidlər xiyabanı ərazisində lazımi işlər aparılmış, ölkəmizdə təmsil olunan əsas dini konfessiya və qurumlar tərəfindən faciə qurbanlarının xatirəsinə dini mərasimlər təşkil edilmiş və digər tədbirlər həyata keçirilmişdir.**

## Respublikamızın paytaxtında



Yanvarın 20-də Bakının küçələri yenə insan selinə bürünmüşdü. Səhər tezdən hər yanda izdiham vardı. Bütün yollar bir ünvanda — "Şəhidlər xiyabanı"nda birləşirdi. Prezident Administrasiyası rəhbərinin Qanlı Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar imzaladığı sərəncama uyğun olaraq burada geniş tədbirlər həyata keçirilmişdi. Hər tərəf gülün, çiçəyin içində idi. İnsanlar dəstə-dəstə, axın-axın buraya gələrək Vətənin azadlığı, müstəqilliyi uğrunda canlarını qurban verən şəhidlərin müqəddəs ruhları qarşısında baş əyir, onlara özlərinin dərin hörmət və ehtiramlarını bildirirdilər. Çöhrələrdə kədərlə, hüznlə yanaşı, həm də bir qürur hissi vardı. Bunun səbəbi aydın idi. Şəhidlər sözün əsl mənasında qəhrəmanlıq nümunəsi göstərmişdilər. Vətənin azadlığına qanları, canları ilə nail olmuşdular. Yəqin bu gün onların ruhu da şaddır. Gündən-günə çiçəklənən, inkişaf edən müstəqil Azərbaycan hər birimiz üçün sonsuz qürur mənbəyidir.

Saat 12:00-da bütün ölkə ərazisində şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, gəmilər, avtomobillər, qatarlar səs siqnalları verdilər. Gün ərzində "Şəhidlər xiyabanı"nda matəm musiqisi səsləndirildi. Respublikanın şəhər və rayonlarında, kənd və qəsəbələrində hüzn əlaməti olaraq dövlət bayraqları endirilmişdi. Təkcə Bakı şəhərində deyil, ölkənin bütün regionlarında, rayonlarında da faciənin 25-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər həyata keçirildi.

* * *

**Yanvarın 20-də səhər Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qanlı Yanvar faciəsində həlak olanların əziz xatirəsini yad etmək üçün "Şəhidlər xiyabanı"na gəldi.**

**Prezident İlham Əliyev "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.**

**Müdafiə Nazirliyinin əlahiddə nümunəvi hərbi orkestrinin ifasında Azərbaycan Respublikasının dövlət himni səsləndi.**

**Mərasimdə dövlət və hökumət rəsmiləri, respublikamızın dini icmalarının başçıları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri də iştirak edirdilər. Onlar da şəhidlərin əziz xatirəsini ehtiramla yad etdilər.**

## Neftçala şəhərində

Vətənin azadlığı, torpaqlarımızın bütövlüyü uğrundakı mübarizələrdə neftçalalılar da az şəhid verməmişlər. Üç nəfər həmyerlimiz — Əbülfəz Cəfərov, Şəmsəddin Orucov, Nurəddin Ağahüseynov isə bilavasitə Qanlı Yanvar hadisələrinin qurbanı olmuşlar. Bununla yanaşı həmin günlərdə çoxlu sayda neftçalalı yaralanmış, xəsarət almış, çox ciddi sarsıntılar keçirmişdilər. Ona görə bu gün neftçalalıların da böyük qürur hissi keçirməyə, öz igid övladları ilə fəxr etməyə haqları vardı.

20 Yanvar faciəsinin 25-ci ildönümünə həsr olunmuş rayon tədbirinin ilkin mərhələsi Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədovun adını daşıyan şəhər mədəniyyət və incəsənət sarayında başlandı. Buraya gələnlər sarayın foyesində təşkil olunmuş 20 Yanvar hadisələrini əks etdirən kitablara baxır, məktəblilərin əl işlərindən ibarət rəsm sərgisinə tamaşa edirdilər. Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri və digər məsul şəxslər də ictimaiyyətlə birlikdə idilər. Sonra tədbir iştirakçıları sarayın geniş və işıqlı salonunda rayon mədəniyyət və turizm şöbəsinin hazırladığı "20 Yanvar - Azadlığa aparan yollar" ədəbi-bədii kompozisiyasına baxdılar, o dövrün qanlı hadisələrinin hiss və həyəcanlarını yenidən yaşadılar.



Yanvarın 20-də şəhərdəki 20 Yanvar abidəsinin ətrafında xüsusilə böyük izdiham vardı. Rayon sakinlərini buraya toplayan şəhidlərə olan böyük ehtiram idi. Əzəmətli musiqi sədaları ürəkləri titrədirdi. Hamının çöhrəçində kədər qarışıq böyük qürur hissi yaşanırdı.

20 Yanvar faciəsinin 25-ci ildönümünün keçirilməsi ilə bağlı təsdiqlənmiş tədbirlər planı rayonumuzda da daim diqqət mərkəzində olmuş, bununla əlaqədar abidə ətrafında lazımi işlər görülmüşdü.

Saat 11-də rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri, ayrı-ayrı ictimai təşkilatların nümayəndələri abidənin önünə gəldilər. Buraya toplaşan insanlar rayon rəhbərini səmimiyyətlə salamladılar. Abidə önünə rayon icra hakimiyyəti adından əklil qoyuldu. Minlərlə rayon sakini də abidə önünə tər çiçəklər düzdü, şəhidlərə ehtiramlarını bildirdi.

Sonra rayon rəhbərliyi və abidə önünə toplaşan insanlar şəhər qəbristanlığına yollandılar. Burada uyuyan bütün şəhidlərin məzarları, o cümlədən Yanvar faciəsi zamanı həlak olan həmyerlilərimizin — Əbülfəz Cəfərovun, Şəmsəddin Orucovun və Nurəddin Ağahüseynovun məzarları ziyarət olundu, məzarların üzərinə tər çiçəklər düzüldü.

* * *

**Yanvarın 20-də rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev Qanlı Yanvar faciəsinin 25-ci ildönümü münasibətilə şəhid ailələrini, 20 Yanvar əlillərini qəbul etmişdir. Onlarla səmimi söhbət edən rayon rəhbəri qayğı və ehtiyacları ilə də maraqlanmışdır. Görüşün sonunda şəhid ailələrinə və 20 Yanvar əlillərinə maddi yardımlar olunmuşdur.**






**Rayonun bütün idarə və müəssisələrində, məktəblərində, mədəniyyət obyektlərində, uşaq tərbiyə müəssisələrində Qanlı Yanvar faciəsinin 25-ci ildönümü ilə əlaqədar silsilə tədbirlər keçirilmişdir. Vətən sevgisi, düşmənə nifrət hissi bu tədbirlərin ümumi qayəsini təşkil etmişdir.**

## 20 YANVAR ŞƏHİDLƏRİMİZ



Əbülfəz Cəfərov



Şəmsəddin Orucov



Nurəddin Ağahüseynov

## BU ƏSL QƏHRƏMANLIQ, VƏTƏNPƏRVƏRLİK İDİ

İfadə etdiyimiz bu sözlər bəlkə də baş verənlərin fonunda kiçik görünür. Bunu yalnız o dövrün dəhşətli hadisələrini gözləri ilə görənlər, bu hadisələrin ağrı-acılarını yaşayanlar, vəziyyətin necə qorxulu, mürəkkəb olduğunu bilənlər başa düşər, anlayarlar.

Bakı qan içində idi. İnsanlar dəhşətli hadisədən sarsılmışdılar. Hər yanda bir həyəcan, stress yaşanırdı. Televiziyanın enerji bloku partladıldığından məlumat azlığı vardı. Adamlar nə baş verdiyini o qədər də yaxşı anlaya bilmirdilər. Dünya ictimaiyyəti Bakıda, Azərbaycanda törədilən dəhşətli hadisələrdən xəbərsiz idi. Xalqı Moskvanın törətdiklərindən daha çox, özünün qul psixologiyalı başçıları, rəhbərləri hiddətləndirirdi. Əgər onlarda təpər, xalqına, torpağına bağlılıq olsaydı yəqin ki, Kreml belə qanlı hadisələri törətməkdən çəkinərdi.

Məhz belə bir çətin, ağrılı vaxtda xalqımızın böyük oğlu möhtərəm Heydər Əliyev təqiblərə, həyatı üçün çox ciddi təhlükələrə baxmayaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Qorbaçov hakimiyyətinin iç üzünü açan bəyanatla çıxış etdi, dünya ictimaiyyətini Bakıda törədilən dəhşətli qırğın barədə məlumatlandırdı. Bu, sözün əsl mənasında qəhrəmanlıq, fədakarlıq, Vətən sevgisi idi. Öz həyatının tamamilə təhlükədə olduğunu dərk edən insanın gözünü qan örtmüş düşmənin qarşısına çıxaraq ona meydan oxumasına başqa ad vermək mümkün deyil. Bu gücü, cəsarəti Ulu Öndərə verən isə xalqına olan sonsuz məhəbbəti, böyük sevgisi idi. Məhz bu bəyanatdan sonra dünya ictimaiyyəti Bakıda baş verən dəhşətli qırğından, bu qırğını kimlərin törətməsindən xəbər tutdu.

Möhtərəm Heydər Əliyev sonrakı illərdə də Vətənin azadlığı, məhv olmaqda olan müstəqilliyimizin qorunması, möhkəmləndirilməsi, əbədi və dönməz olması üçün əlindən gələni əsirgəmədi. Təxribatlara, həyatına olunan sui-qəsdlərə baxmayaraq haqq yolundan dönmədi. İnkişaf etdirərək beynəlxaq aləmə tanıtdırdığı müstəqil Azərbaycanı - özünün böyük zəhmət, məşəqqətlər bahasına qurub yaratdığı şah əsərini xalqına ərmağan qoyub getdi.

Qürurverici odur ki, Ulu Öndərin işıqlı yolu özünün inandığı, etibar etdiyi siyasi varisi - möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Bu gün Cənubi Qafqazın lider ölkəsinə çevrilən Azərbaycanın iqtisadi modeli bir çox dünya ölkələrinə nümunə göstərilir. Bir-birindən layiqli uğurlara imza atan, möhtəşəm qələbələr qazanan ölkəmiz təkcə iqtisadi sahədə deyil, digər sahələrlə yanaşı ordu quruculuğu sahəsində də müsbət nəticələrə nail olub. Ən müasir silahlarla təchiz olunan, modernləşdirilən Azərbaycan Ordusu ən güclü ordulardan biridir. Ali Baş Komandan əmr versə Silahlı Qüvvələrimiz işğal altında olan torpaqlarımızı azad etməyə hər an hazırdır. Bunu ermənilər də, onların havadarları da yaxşı bilirlər.

Bu gün Azərbaycanın üçrəngli bayrağı hər yerdə əzəmətlə, vüqarla dalğalanır. Biz bundan qürur duyuruq, qəlbimiz iftixarla döyünür. Belə bir gündə yəqin, ömrünü xalqına, millətinə qurban deyən Ulu Öndər Heydər Əliyevin də, ölkəmizin azadlığı, müstəqilliyi uğrunda canlarından keçməyi bacaran şəhidlərimizin də ruhları şaddır. Onların arzuları, istəkləri həqiqətən çiçək açıb, reallığa çevrilib. Müstəqillik yollarında inamlı addımlar atan respublikamızı şübhəsiz, qarşıda daha böyük qələbələr, zəfərlər gözləyir.

## 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsi haqqında

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasında həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradılmışdır. Aqrar sektorda əsaslı dəyişikliklər baş vermiş, yeni iqtisadi və mülkiyyət münasibətləri formalaşmış, normativ hüquqi baza təkmilləşdirilmişdir. İdarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməkdədir.

Kənd təsərrüfatının inkişafına dövlət dəstəyinin gücləndirilməsi, yeni çağırışlara uyğun sahə üzrə strateji hədəflərin və institusional dəyişikliklərin müəyyən edilməsi sahənin keyfiyyətcə yeni mərhələyə keçməsinin təməlini qoymuşdur. Əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsi, aqrar sahədə ixrac potensialının artırılması məqsədi ilə ölkədə müasir aqroparklar və iri fermer təsərrüfatları təşkil edilir. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində bölgələrdə müasir infrastruktur qurulmuş, kəndlərarası avtomobil yollarının şəbəkəsi genişləndirilmişdir.

Şəmkirçay və Taxtakörpü su anbarlarının istismara verilməsi suvarılan yeni torpaq sahələrinin əkin dövriyyəsinə cəlb edilməsinə və torpaqların münbitliyinin qorunmasına şərait yaradır.

Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən etmişdir. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları, torpaq vergisi istisna olmaqla, vergilərdən azad edilmişlər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən lizinqə verilən və lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacaq üçün dövlət subsidiyalar verir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək, bu sahəyə dövlətin inzibati və maliyyə resurslarını səmərəli şəkildə cəlb etmək, ölkəmizin aqrar potensialını geniş təbliğ etmək məqsədi ilə qərara alıram:

1.2015-ci il Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilsin.

2.Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə birlikdə 2015-ci ilin Azərbaycan Respublikasında "Kənd təsərrüfatı ili" elan edilməsinə dair tədbirlər planını bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 12 yanvar 2015-ci il.**

# Mərkəzi Seçki Komissiyası bələdiyyə seçkilərinin yekunlarını elan etdi

Yanvarın 12-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) iclası keçirilib.

MSK Katibliyinin media və ictimai əlaqələr şöbəsindən AzərTAc-a bildiriblər ki, iclasda 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərinin yekunları barədə məsələyə baxılıb. Qeyd olunub ki, dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ölkəmizin tarixinə müstəsna əhəmiyyətli hadisələrdən biri kimi yazılıb. Seçkilərin yüksək səviyyədə hazırlanıb keçirilməsi üçün MSK və aidiyyəti dövlət qurumları tərəfindən Seçki Məcəlləsində nəzərdə tutulmuş vəzifələrin icrasına xüsusi diqqətlə yanaşılıb. Seçki prosesinin mühüm mərhələləri olan seçici siyahılarının dəqiqləşdirilməsi, normativ-hüquqi bazanın təkmilləşdirilməsi, seçicilər də daxil olmaqla, bütün seçki subyektlərinin maarifləndirilməsi, bələdiyyə üzvlüyünə namizədlərin irəli sürülməsi və qeydə alınması, bərabər şərtlərə əsaslanan seçkiqabağı təşviqat imkanının yaradılması, müşahidəçilər və kütləvi informasiya vasitələri nümayəndələrinin sərbəst fəaliyyəti üçün maneəsiz şəraitin yaradılması və bütün digər addımlar MSK-nın hazırlayıb təsdiq etdiyi "Bələdiyyə seçkilərinin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim planı"na əsasən təmin olunub.



Ermənistan tərəfindən əraziləri işğal edilmiş rayonları əhatə edən 7 seçki dairəsi üzrə bələdiyyə seçkilərinin keçirilməsi mümkün olmadığına görə, bələdiyyə seçkiləri ümumilikdə 125 seçki dairəsinin 118-də, 5015 seçki məntəqəsi üzrə keçirilib. 1607 bələdiyyəni əhatə edən seçkilərdə 15035 bələdiyyə üzvlüyünə 37077 nəfərin namizədliyi qeydə alınıb və bütün namizədlərə seçkiqabağı təşviqat dövründə bərabər şərait və eyni imkanlar yaradılıb. Bələdiyyə seçkiləri ilə bağlı daxil olmuş bütün müraciətlər vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması məqsədilə hərtərəfli və obyektiv araşdırıldıqdan sonra operativ şəkildə iclasa çıxarılaraq Komissiya üzvləri tərəfindən müzakirə edilib və müvafiq qərarlar qəbul olunub.

Seçkilər zamanı aşkarlığın təmin olunması üçün digər vasitələrlə yanaşı, işğal olunmuş ərazilər istisna olmaqla, bütün ölkə coğrafiyasını əhatə edən 1000 seçki məntəqəsində (seçki keçirilən məntəqələrin təqribən 20 faizində) internet vasitəsilə səsvermə prosesini canlı izləmə imkanı verən veb-kameralar quraşdırılıb. İnternet istifadəçiləri istər ölkə daxilindən, istərsə də ölkə xaricindən MSK-nın internet səhifəsinə daxil olaraq, heç bir qeydiyyat tələb edilmədən, real zaman rejimində seçki məntəqələrində səsvermə günü baş verən bütün prosesləri izləmək imkanına malik olublar.

Müxtəlif siyasi partiyaları, qeydə alınmış namizədləri, qeyri-hökumət təşkilatlarını təmsil edən, eyni zamanda öz təşəbbüsləri ilə seçkilərə qatılmış 50 mindən artıq müşahidəçi, həmçinin respublikada fəaliyyət göstərən yerli və xarici kütləvi informasiya vasitələrinin nümayəndələri sərbəst və maneəsiz şəkildə seçkiləri izləyib. Seçki günü səsvermə başa çatdıqdan sonra fasiləsiz olaraq səslərin hesablanması həyata keçirilib, yerli və beynəlxalq ictimaiyyətin seçkilərin nəticələri ilə tanış olması üçün səsvermə başa çatdıqdan təqribən 5 saat sonra 70 faizdən artıq seçki məntəqələri üzrə ilkin nəticələr, növbəti gün, günün birinci yarısında artıq ölkə üzrə bütün seçki məntəqələrinin protokol məlumatları operativ şəkildə MSK-nın internet səhifəsində yerləşdirilib. Səsvermənin nəticələrinə dair yekun protokollar və digər seçki sənədləri qanunla müəyyən olunmuş müddətdə məntəqə seçki komissiyalarından dairə seçki komissiyalarına, oradan isə MSK-ya çatdırılıb.

Bələdiyyə seçkilərində ölkə üzrə seçici siyahısına daxil edilmiş 4831328 seçicinin 1880390 nəfəri, yaxud seçicilərin ümumi sayının 38,92%-i səsvermədə iştirak edib və seçkilər baş tutub.

Komissiya üzvlərinin müzakirəsi zamanı 2014-cü il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərinin baş tutduğu, bu seçkilərin ümumən Azərbaycan Respublikası Konstitusiyasına, Seçki Məcəlləsinə və digər qanunvericilik aktlarına uyğun keçirildiyi qeyd olunub. Eyni zamanda, 43 seçki məntəqəsində səsvermənin nəticələrinin ləğv edilməsi, 8 bələdiyyə üzrə seçkilərin etibarsız sayılması, seçkilərin ümumi yekunları rəsmi təsdiq edilən bütün 1599 bələdiyyə üzrə bələdiyyə üzvlərinin tam tərkibdə formalaşmasının nəzərə alınması və bələdiyyələr üzrə seçilmiş üzvlərin siyahısının elan olunması barədə qərar qəbul edilib.

Seçkilərin hazırlanması, keçirilməsi və nəticələrin müəyyən olunması zamanı öz fəaliyyətində yol verdiyi nöqsanlara görə 54 saylı Şabran-Siyəzən, 70 saylı Masallı şəhər və 75 saylı Lənkəran-Masallı seçki dairələrinin dairə seçki komissiyaları, habelə müxtəlif səbəblərdən nəticələri etibarsız hesab edilmiş 5 seçki məntəqəsinin məntəqə seçki komissiyaları buraxılıb.

Sonda bələdiyyə seçkilərinin ümumi yekunlarına dair Mərkəzi Seçki Komissiyasının yekun protokolu tərtib edilib və Komissiya üzvləri tərəfindən imzalanaraq təsdiqlənib.

İclasda beynəlxalq təşkilatların, xarici qurumların və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak ediblər.

# Bələdiyyə seçkiləri rayonumuzda da uğurla başa çatdı

Ötən il dekabrın 23-də respublikamızın hər yerində olduğu kimi rayonumuzda da bələdiyyə seçkiləri mütəşəkkil qaydada keçərək uğurla başa çatmışdır. Seçkilərə geniş hazırlıq işlərinin görülməsi, bu işlərin Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiqlənmiş Təqvim planı əsasında həyata keçirilməsi, qanunlardan irəli gələn tələblərə ciddi əməl olunması nəticənin yüksək səviyyədə əldə edilməsini təmin etmişdir.



Rayondakı 41 məntəqənin hamısında səsvermə səhər saat 8:00-da başlanmışdır. Həmin gün səsvermədə 61 saylı Neftçala Dairə Seçki Komissiyası üzrə 40.816 nəfər seçici iştirak etməli idi. Onlardan 384 nəfəri ilk dəfə səs verən gənclər idi. Seçki prosesini birbaşa izləmək üçün 5 seçki məntəqəsində vebkameralar quraşdırılmışdı. Seçkilərə start verilən kimi seçicilər ərazilərindəki məntəqələrə gələrək daha çox inandıqları, etibar etdikləri namizədlərə səs verməyə başladılar. Biz də mətbuat nümayəndəsi kimi ayrı-ayrı məntəqələrə baş çəkdik. Hər yerldə böyük sevincin, yüksək əhvali-ruhiyyənin şahidi olduq. Seçicilər həvəslə gələrək vətəndaşlıq borclarını yerinə yetirirdilər. Seçkilərin gedişini 395 nəfər müşahidəçi izləyirdi. Onlar da səsvermənin hər yerdə normal getdiyini, qanun pozuntularına yol verilmədiyini bildirdilər.

Axşam biz eyni zamanda 61 saylı Neftçala seçki dairəsində olduq. Məntəqələrdə səsvermə başa çatdıqdan sonra iş burada davam etdirildi. Dairə seçki komissiyasının üzvləri də üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəldilər. Məntəqələrdən gələn protokollar vaxtında qəbul edilərək Mərkəzi Seçki Komissiyasının bazasına ötürülürdü. Sonda yekun olaraq dairə seçki komissiyasının sədri Aygün Abdullayevadan fikrini bildirməyi xahiş etdik. O dedi:

— Seçkilər hər yerdə mütəşəkkil keçdi. Seçicilərimiz gözlədiyimizdən də artıq fəallıqla, xoş əhvali-ruhiyyə ilə gələrək səslərini verdilər. Bu onu göstərir ki, rayon sakinlərinin seçiləcək namizədlərdən gözləntiləri çoxdur. İnanıram ki, onlar da üzərlərinə düşən məsuliyyəti dərindən dərk edəcək, seçicilərinə verdikləri vədləri ardıcıllıqla yerinə yetirəcəklər. Yenidən seçiləcək, formalaşdırılacaq bələdiyyələrə bəri başdan uğurlar arzulayıram.



Bələdiyyə seçkilərində 61 saylı Neftçala Dairə Seçki Komissiyası üzrə seçici siyahılarına daxil edilmiş 40.816 nəfər seçicinin 16.228 nəfəri, yaxud seçicilərin ümumi sayının 39,75 faizi səsvermədə iştirak edib. Bu, respublika göstəricisindən yüksəkdir.

## Qanlı Yanvar hadisələrini xatırlayarkən

# QÜRUR HİSSİ VƏ NARAHATLIQLAR

**"İstəyirəm xalqımızda birlik olsun, milli qürur hissi daha güclü olsun, tariximizi sevək, el üçün yanmış şəxsiyyətlərimizin qədrini bilək"...**

**Heydər ƏLİYEV**

Neftçala "Təhsil muzeyi"ndə topladığım qiymətli sənədlər arasında bir qəzet nömrəsi diqqətimi cəlb etdi. Bu, "Yeni Azərbaycan" qəzetinin 20 iyun 2001-ci il tarixli 115-ci sayı idi. Qəzetin 7-çi səhifəsində böyük bəstəkar, dünya şöhrətli musiqiçi, "Şöhrət" ordenli, həmyerlimiz Arif Məlikovun "Musiqi bəşərin Allahla danışan dilidir" başlıqlı müsahibəsini təkrar-təkrar oxudum, bir daha 90-cı illərin qanlı hadisələrini, 20 Yanvarı xatırladım, bir də həmin hadisələrin təsiri ilə yaşadım. Həmin hadisəılərin canlı şahidləri olan böyük şəxsiyyətlərin ölümün gözünə dik baxdıqları, özlərini vətən və xalq naminə fəda etməkdən qorxmadıqlarını bu günkü gəncliyə, yeni nəslillərə çatdırılmasının nə qədər vacib olduğunu başa düşdüm. Qanlı Yanvar hadisələri zamanı o vaxt SSRİ Ali Sovetinin deputatı olmuş böyük bəstəkar Arif Məlikovun xallı Mixail Qorbaçovla üzüzə, göz-gözə dayanaraq canlı dialoqa girməsi hər bir azərbaycanlıda qurur hissi doğurur, onu qəhrəmanlığa çağırır. Bu həm də nəsillərə nümunədir, örnəkdir.

Arif müəllim deyir "Qorbaçov sual verdi ki, necə olur mənim bir güc nazirliyim bu qədər sənəd əldə edə bilmir, bir bəstəkar edir". Dedim "axı qanına qəltan edilən sənin güc nazirliyinin milləti deyil, mənim millətimdir". Arif müəllim deyir ki, mənim əlimə müxtəlif sənədlər keçmişdi, hamısı da möhürlü, ştamplı. Əlimdə olan məlumatları, sənədləri toplayıb öz hesabıma bir kitab nəşr etdim. "Mən ittiham edirəm"... Amma kitabın taleyi uğurlu olmadı. Məlum oldu ki, kiminsə göstərişi ilə kitabları mağazalardan yığışdırıblar. Mən deyirdim bu, vətənə, millətə qarşı əsl xəyanətdir, satqınlıqdır. Mən ona (Qorbaçova T.M.) dedim: "Sənin iki əlin də qana batıb. Millətlər qarşısında cavab verəcəksən…"

İmperiyanın mərkəzində, ali bir məclisdə quduzlaşmış ölkə başçısına, onun suallarına Arif Məlikovun zalı heyrətə salan cavablarının hər biri bomba kimi partlayır. Cavab tapmaqda çətinlik çəkən Qorbaçov fasilə elan etməyə məcbur olur. Məclisdə isə çox böyük həyəcan hissi yaşanır. Hamı elə bilir ki, indi nəsə ciddi bir hadisə baş verəcək. Yox, heç bir hadisə baş vermir. Onsuz da, İmperiya və onun vəhşiləşmiş nökərləri 20 yanvarda Azərbaycana, onun xalqına elədiklərini eləmişdilər. Azərbaycançılıq, millət və dövlətçilik naminə özünü qurban vermək, fədakarlığın nə demək olduğunu göstərməklə məğrur bəstəkarimiz "ölüm, yoxsa qalım" seçimi qarşısında idi. Bu, sözün əsl mənasında Qorbaçov hakimiyyətinə qarşı bir üsyan idi, imperiyanın çökməsi demək idi. Artıq Arif müəllim seçimini etmişdi, onda qorxu hissi yox idi, nə olacaq, qoy olsun. Bu cavablar bəlkə də Qorbaçovun özünü şok vəziyyətə salmışdı.



**Tədbir MAHMUDOV, respublikanin Əməkdar müəllimi**

Bu, böyük vətəndaşın xalqımızın dözülməz faciəsini bütün dünyaya bəyan etməsi idi. Bundan qabaq biz bu böyük fədakarlığı, qəhrəmanlığı xalqımızın mərd, mübariz oğlu Heydər Əliyev şəxsiyyətində görmüşdük. Dünya ictimaiyyətinin Bakıda, Azərbaycanda törədilən dəhşətli hadisələrdən, qanlı faciədən xəbərsiz olduğu bir vaxtda Heydər Əliyev təqiblərə, həyatı üçün yarana biləcək çox ciddi təhlükələrə baxmayaraq Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək Qorbaçov hakimiyyətinin iç üzünü açan kəskin bəyanatla çıxış etmişdi. Sevimli bəstəkarımız deyir ki, fasiləyə çıxanda bir nəfər adam mənə yaxınlaşmadı. Hamıdan uzaqda dayanan isə öz deputatlarımız idi. Tək bircə adam yaxınlaşıb mənimlə söhbət etdi. O da Bakatin idi. Daxili işlər naziri. Hamı elə bildi ki, indi mənə nəsə edəcəklər. Amma Bakatın mənimlə musiqidən-yaradıcılığımdan söhbət edirdi. Halbuki, həmin dəqiqələrdə Arif müəllimin yanında Azərbaycanı təmsil edən vətən övladları olmalı idi. Ona mənəvi dəstək verməli idilər. Amma çox təəssüf ki, Arif müəllim öz deputatlarımızdan bunu görmədi...

Arif müəllim davam edərək deyir: "Fasilədən sonra zala qayıtdıq. Qorbaçov da ağılsız adam deyildi. Üzünü mənə tutaraq "mənim sevimli bəstəkarım, sənə bir simfoniya yazmaq təklif edirəm" - dedi. Cavabında dedim: "Yazaram, amma bu simfoniya mənim millətimin faciəsini əks etdirəcək. "

Bu hadisə məni də hədsiz mütəəssir etdi, kövrəltdi. Elə hey birlik, birlik deyirik. Türk xalqının böyük oğlu Süleyman Dəmirəlin "Birliyimiz diriliyimizdir" müdrik kəlamını xatırlatmaq yerinə düşər. Millət oğlu məhz belə ağır dəqiqələrdə öz soydaşına qarşı diqqətli olmalı, onu tək, yalqız qoymamalıdır. Ancaq belə olmadı. Arif müəllim meydanda tək qaldı.

Yeri gəlmişkən narahatlıq doğuran bəzi məsələləri qeyd etməyi də vacib bilirəm. Son vaxtlar gənclərimizin xaricə üz tutmalarına laqeyd qalmaq olmur. Bu günlərdə bir neçə gənclə söhbət əsnasında öyrəndim ki, onlardan üçünün ali təhsili var, yaxşı əmək haqqı alırlar, maşınları da var, ancaq nə edəsən ki, xaricə, Amerikaya, Almaniyaya, İsveçrəyə və başqa ölkələrə getməyə hazırlaşırlar. Daha çox pul qazanmaq, dəbdəbəli həyat keçirmək, bahalı maşınlarda gəzmək onların ən böyük amalıdır. Hətta bir çox elm, sənət adamlarının öz sənətlərini, biliklərini xaricə satmaları da müşahidə olunur. Oradan vətənə daş atanlar, düşmən dəyirmanına su tökənlər də tapılır. Onların bir çoxu qaçqın, köçkün adı ilə düzəltdikləri saxta sənədlərlə əsgəri xidmətlərindən yayınmaqdan belə çəkinmirlər. Təki onların özləri yaxşı yaşasınlar. Böyük hind yazıçısı Taqor deyirdi ki, Vətənin dünyanın ən pis guşəsi olsa belə, onu yad yerdə pisləmə. Halbuki, bizim vətənimiz, doğma Azərbaycanımiz dünyanın ən gözəl guşələrindən biridir. Onun əsrarəngiz gözəlliklərini, bol sərvətlərini, böyük inkişafını görməmək ən azı nankorludur.

Yenə də sevimli bəstəkarımız Arif Məlikovun müsahibəsindəki vətəndaşlıq qeyrəti ilə dediyi fikirləri xatırlatmaq istərdim. "Mənə Yaponiyadan, Almaniyadan təkliflər gəlir. Mən öz vətənimdə gənc bəstəkarlar hazırlayıb günə bir qutu siqaretin pulunu da almağa razıyam, biliyimi yada satıb milyon qazanmağa yox". Bax, buna deyərlər vətənsevərlik, yurdsevərlik, dədə-baba ocağına bağlılıq, əsl təəssübkeşlik!

Mənim böyük bəstəkarımızla heç bir şəxsi tanışlığım yoxdur. O məni tanımır da. Lakin mən onu yaxşı tanıyıram. Onun müsahibələrini dinləmişəm, oxumuşam. Mən musiqiçi olmasam da, dünyanı dolaşan, sevilə-sevilə tamaşaya qoyulan N.Hikmətin eyni adlı pyesi əsasında yazdığı "Məhəbbət əfsanəsi" baleti haqqında məlumatım var. Əsər 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında mayestro Niyazinin dirijorluğu ilə tamaşaya qoyulanda böyük bəstəkarın cəmi 28 yaşı vardı. Bu, gənc bəstəkarın dünya musiqisinə ən dəyərli töhfəsi idi. Onunla yalnız bir dəfə görüşmüşəm. 90-cı ildə Moskvadan qayıdandan sonra təşəbbüsümlə Neftçalada, Nuruş Əliyev adına kolxozun mədəniyyət sarayında Arif Məlikovla bir görüş keçirdik. Çox izdihamlı bir görüş idi. Sarayda bir boş yer belə yox idi, ayaq üstə duranlar da vardı. Çıxışlar oldu, həmin hadisələr bir daha təkrarlandı. Mən də çıxış etdim. Arif müəllim Moskvada Qorbaçovla əlaqədar olan bəzi məqamlara da toxundu.

Bir müdirikin kəlamını xatırlayıram: "Özümü sevirəm, özümdən artıq külfətimi sevirəm, külfətimdən artıq vətənimi sevirəm". Görkəmli yazıçı, ədəbiyyatşunas alim Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" əsərində ana - Sona ehtiyac üzündən oğlu üçün cehiz saxladığı "Yusif-Züleyxa" xalçasını bazara çıxarıb satmaq istəyir. Öyrənəndə ki, xalçanı almaq istəyən ingilis lordudur, əsəbi halda xalçanı qatlayıb qoltuğuna vurur və deyir: "satmıram, satmıram, itə ataram, yada satmaram."

Söhbət etdiyim gənclərdən biri bu məsələyə adi hal kimi baxaraq "torpaq, elə hər yerdə torpaqdır" - dedi. Düşünürəm, görəsən bu laqeydlik, biganəlik, bayağı duyğular hardan gəlib, necə yaranıb? Onlar hələ başa düşmürlər ki, vətən nə deməkdir. Onlar bilmirlər ki, Azərbaycan torpağının yetişdirdiyi məhsulların, nemətlərin dadı-tamı da başqa torpaqların məhsullarından fərqlənir. Sevimli şairimiz N.Xəzrinin aşağıdakı misralarını xatırlatmaq yerinə düşər:

**İnanma desələr, torpaq torpaqdır**
**Vətən torpağnın ətri başqadır.**

Ulu Öndərimiz Heydər Əliyevin müdrik bir kəlamını yada salmaq istəyirəm: "Bizim hamımızın bir vətəni var - bu, Azərbaycandır!" Yeraltı, yerüstü sərvətləri ilə zəngin və hamımızın olan bu doğma Azərbaycanımızın müstəqilliyini göz-bəbəyimiz kimi qoruyaq, bütövlüyünü bərpa etməkdən ötrü əlimizdən gələni əsirgəməyək.

# BAĞLI QALDI TOY XONÇASI

1990-cı il 20 Yanvar hadisələrini xatırlamaq mənim üçün çox çətindir. Ona görə ki, bu qanlı hadisələr vaxtı mən də öz doğma qardaşımı — Əbülfəz Cəfərov kimi bir igidi itirmişəm. Ötən bu illər ərzinldə digər şəhidlərimiz kimi onun haqqında da müəyyən yazılar yazılıb, məlumatlar verilib. Amma elə bilirəm bunlar azdır. Rayon sakinləri, geniş ictimaiyyət Əbülfəzin kimliyi, necə insan olması haqqında kifayət qədər məlumata malik deyil. Məni bu yazını yazmağa məcbur edən də daxilimdəki bu hisslər oldu.

Əbülfəz Böyükağa oğlu Cəfərov 1964-cü il dekabrın 14-də Bankə qəsəbəsində anadan olmuşdu. 1972-ci ildə qəsəbədəki tam orta məktəbə daxil olan Əbülfəz 1982-ci ildə orta təhsilini başa vurub. O, dərslərini yaxşı oxumaqla yanaşı həm də ictimai işlərdə fəal iştirak edib, müəllim və şagird yoldaşlarının hörmətini qazanıb. Qardaşım eyni zamanda duyğulu bir insan idi. Orta təhsilini başa vurduğu il onun "Azərbaycan" şeiri rayonumuzda çıxan "Oktyabr bayrağı" qəzetində dərc olunmuşdu.

Əbülfəz idmanı çox sevirdi. İdmanın karate və güləş növləri ilə məşğul olurdu. O həm də rəqs həvəskarı idi. Müntəzəm olaraq rayon mədəniyyət evindəki rəqs dərnəyinə gedər, məşqlər edərdi. Moskva şəhərində rəqs üzrə keçirilən festivalda diplom və medallarla təltif olunması çəkdiyi zəhmətin bəhrəsi idi.

1983-cü ildə hərbi xidmətə yola düşən Əbülfəz hərbi hava desantı qoşunlarında xidmət edib. Əsgəri xidməti illərində də o idmandan ayrılmayıb. Karate ilə, idmanın digər növləri ilə müntəzəm məşğul olub, fiziki sağlamlığını daim möhkəmləndirib.



Hərbi xidmətini başa vurduqdan sonra Əbülfəz anamın da razılığı ilə özünün sevdiyi, istədiyi qızla nişanlanmışdı. Bu zaman o həm işləmək, həm də təhsilini artırmaq məqsədilə Krasnovodsk şəhərinə yollandı. Ali polis məktəbinə daxil olanda biz də ürəkdən sevinmişdik. Təhsil almaqla yanaşı dəmir yolunda da işləyirdi. Azərbaycanda baş verən milli azadlıq hərəkatından sonra Əbülfəz orada qala bilmədi, Vətənə qayıtdı. Onda o ikinci kursda oxuyurdu. Bankə balıq kombinatında "Venera" gəmisində işə düzələrək əmək fəaliyyətini burada davam etdirməyə başladı.

Ermənilərin Qarabağda törətdikləri vəhşiliklərə digər vətənsevər el övladları kimi Əbülfəz də laqeyd qala bilmədi. Könüllülərdən ibarət təşkil olunmuş xüsusi batalyonun tərkibində Qubadlının müdafiəsi üçün aylarla vuruşaraq fədakarlıq nümunələri göstərdi. Həmin batalyonun döyüşçüləri 1990-cı il Qanlı Yanvar hadisəsinin ertəsi günü Neftçalaya qayıtdılar. Əbülfəz ilk şəhidimiz Şəmsəddin Orucovun dəfnində iştirak etdi. Qanlı hadisə onu çox təsirləndirmişdi. O vaxt yazdığı, qələmə aldığı təsirli bayatılar da bununla bağlı idi. Bu bayatıları biz o şəhid olduqdan sonra tapdıq. Sanki öz taleyini qabaqcadan bilib yazmışdı bu bayatıları qardaşım. Bu bayatıları oxuyarkən anamın çəkdiyi haray, nalə hələ də qulaqlarımda qalıb.

Azğın sovet qoşunları yanvarın 25-də tanklarla rayona hücum edəndə Əbülfəz evdə idi. Nişanlısı Sevillə birlikdə mən də onun yanında idim. Evdən nə vaxt çıxdığını hiss etmədik. Atışma başlananda anamın dediyi "Mən ona bələdəm, Əbülfəzim əlimdən getdi" sözlərini bu gün də yana-yana xatırlayıram. Elə də oldu. Atışma başlayarkən əliyalın olmasına baxmayaraq Əbülfəz silahlı düşmənlə vuruşub, vurduğu zərbələrlə iki rus əsgərini yerə sərib. Bunu görən üçüncü əsgər əlindəki avtomatdan Əbülfəzə atəş açıb. Çoxsaylı güllə yarası almasına baxmayaraq o yenə müqavimət göstərib, düşmənə təslim olmayıb. Yoldaşlarına üz tutaraq:

— Bunların başını qatmışam, siz camaatı xilas edin, — deyib.

Barmağındakı üzüyü çıxarmağa cəhd göstərən əsgərlər buna nail ola bilmədikdə, üzüyü barmağı ilə birlikdə kəsib götürüblər. Nişanlısı Sevillə birlikdə onu axtarsaq da, tapa bilmədik. Sonradan bildik ki, Əbülfəzi digər yoldaşları ilə birlikdə Bankə qəsəbəsindəki hərbi hissənin hamamına apararaq burada ona olmazın əzabını, işgəncələrini veriblər. Güllələnməsinə, 9 yerdən bıçaq yarası almasına baxmayaraq Əbülfəz onları qaniçən adlandırmaqdan çəkinməyib. O, vertolyotla Bakı şəhərinə aparılarkən yolda şəhid olub. Biz onu yalnız üç gün sonra "Semaşko" xəctəxanasında tapdıq. Əbülfəzin son sözü bu olmuşdu: mən Vətənimin yolunda şəhid oldum, anama deyin məni bağışlasın.

Ana ürəyi çox həssas olur. Sanki o, övladının başına gələnləri qabaqcadan duymuşdu. Onun dediyi kimi də oldu. Əbülfəz doğrudan da əldən getdi. O gündən qara geyinən anam heç yerə getmədi. Qardaşlarımın toyunda belə qollarını qaldırmadı. Elə hey Əbülfəzi səslədi, səsimə səs ver dedi. Övladının yoxluğuna dözməyən anam çox keçmədi, özü də dünyasını dəyişdi. Onu Əbülfəzin yanında dəfn etdik.

Yaşasaydı 50 yaşını qeyd edərdik Əbülfəzin. Bu gün isə onun ölümünün 25 ilini qeyd edirik. İndi dilimdə yalnız "kaş ki" kəlməsi dolaşır. Öz-özümə "kaş ki, o vaxt qardaşımla daha çox vaxt keçirəydm, şəkillər çəkdirəydim, onu ora buraxmayaydım" deyirəm. Özümü heç cür bağışlaya bilmirəm. Axı bizim yanımızdan getdi. Sanki Vətəni yolunda şəhid olmaq üçün yaranmışdı Əbülfəz. Vətəni üçün canından, qanından keçməkdən ötrü tələsirmiş qardaşım.

Darıxsaq da, ağlasaq da qismətimizlə barışmalı oluruq. Görünür yazı belə imiş. Kaş o yazını dəyişə biləydik. Belə igidləri unutmağa haqqımız yoxdur. Biz bacı-qardaşlar onun xatirəsini necə əziz tuturuqsa, rayon ictimaiyyətindən, bütün xalqımızdan da bunu umuruq.

Ölümündən sonra "Azadlıq uğrunda mübariz" adına layiq görüldü Əbülfəz. Allah bütün şəhidlərimizə rəhmət eləsin, qəbirləri nurla dolsun. Onlar bizim xoşbəxtliyimiz, azadlığımız üçün canlarını qurban verdilər.

İndi oxuduğu məktəb Əbülfəz Cəfərovun adını daşıyır. Əbülfəzin adını həm də qardaşım oğlu daşıyır. Bunlar bizim üçün böyük təsəllidir. Sözümü Əbülfəzin ölümündən üç gün əvvəl yazdığı bayatılarla yekunlaşdırmaq istəyirəm:

**Mən aşiq yaralıyam,**
**Əl vurma, yaralıyam.**
**Tanıyanım olmasa**
**Bankəli balasıyam.**

**Mən aşiq toy xonçası,**
**Tutmadım toy xonçası.**
**Balamı qəfil itirdim,**
**Bağlı qaldı toy xonçası.**

**Gülnaz ƏLƏKBƏROVA,**
**şəhidin bacısı**

# ƏRAZİ NÜMAYƏNDƏLİKLƏRİNDƏ HESABAT YIĞINCAQLARI

**Hər ötən il özünə məxsus nəticələrlə, göstəricilərlə qalır yaddaşımızda. Beynəlxalq aləmdəki, dünya ölkələrindəki geriləmələr, maliyyə çətinlikləri ölkəmizdə özünü göstərmədi. Azərbaycan yüksək templə inkişaf edərək 2014-cü ili də uğurla başa vurdu. Şübhəsiz, onun bir parçası olan Neftçala da bu inkişafdan, yüksəlişdən kənarda qala bilməzdi. Yola saldığımız ildə qazanılan nailiyyətlər, əldə olunan nəticələr rayonumuz üçün xüsusilə əlamətdardır.**

**Buna baxmayaraq görüləsi işlər, həyata keçiriləsi tədbirlər çoxdur. Ona görə indi idarə və müəssisələrdə, inzibati ərazi dairəsi üzrə nümayəndəliklərdə görülən işlər geniş təhlil olunmaqla yanaşı qarşıda duran vəzifələr də hərtərəfli müəyyənləşdirilir.**

## Yuxarı Qaramanlı inzibati ərazi dairəsində

Rayon icra hakimiyyəti başçısının yerlərə, ərazilərə gəlişi, insanlarla görüşü həmişə böyük marağa səbəb olur, geniş rəy doğurur.

Yanvarın 21-də Yuxarı Qaramanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlikdə keçirilən hesabat yığıncağında biz bunu bir daha əyani şəkildə gördük. Həmin gün ərazidəki II Qaralı kənd tam orta məktəbinin akt zalına çoxlu sayda insan toplaşmışdı.



Yığıncaq açıq elan edildikdən sonra kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yalçın Abıyev çıxış edərək ötən il görülən işlər, həyata keçirilən tədbirlər barədə ətraflı məlumat verdi. Aydın oldu ki, 3 mindən artıq əhalinin yaşadığı bu ərazidə 2 orta məktəb, məktəbəqədər uşaq tərbiyə müəssisəsi, həkim məntəqəsi, klub, kitabxana, poçt şöbəsi, ATS və digər obyektlər fəaliyyət göstərir. Son illər ərazidə əhalini narahat edən bir sıra məsələlərin həlli kənd sakinlərinin böyük razılığına səbəb olub. İstər II Qaralı, istərsə də Yuxarı Qaramanlı kənd tam orta məktəblərinin uzun illər yararsız binalarda yerləşməsi insanlarda ciddi narahatlıqlar doğururdu. Görülən tədbirlər nəticəsində hər iki kənddə müasir tələblərə cavab verən yeni məktəb binaları tikilərək müəllim və şagirdlərin istifadəsinə verilib. Bununla yanaşı kəndarası yollara çınqıl döşənərək qaydaya salınıb, bir sıra təmir, abadlıq və yaşıllaşdırma işləri həyata keçirilib. Ərazidən keçən Şorkənd-Şirvanlı yolunun əsaslı təmiri ilə bağlı dövlət başçısı cənab İlham Əliyevin ötən il imzaladığı sərəncam bu zonada yaşayan insanları xüsusilə sevindirib.

Hesabat dövründə yaşayış məntəqələrində və məhəllələrdə əhali ilə sıx əlaqə saxlanılmış, müntəzəm olaraq keçirilən görüşlərdə, toplantılarda kəndin sosial problemləri geniş müzakirə olunmuşdur. Nümayəndəlik yerli bələdiyyə ilə birlikdə şəhid ailələrinə, Qarabağ əlillərinə, müharibə veteranlarına daim diqqətlə, qayğı ilə yanaşmış, müntəzəm olaraq onlara maddi köməkliklər edilmişdir.



Hesabat ilində öz fəaliyyətini günün tələbləri səviyyəsində qurmağa çalışan nümayəndəlik respublika Prezidentinin, Milli Məclisin, Nazirlər Kabinetinin fərman və sərəncamlarından, qərarlarından irəli gələn vəzifələri ardıcıllıqla yerinə yetirmiş, vətəndaşların ərizə, şikayət və müraciətlərinə diqqətlə yanaşmış, onların həlli üçün lazımi tədbirlər görmüşdür.

Bununla yanaşı həllini gözləyən, insanları narahat edən çətinlik və problemləri də dilə gətirən məruzəçi elektrik avadanlıqlarının tələbatı ödəmədiyini, qazın olmamasını, bir çox kanalların qazılmasına baxmayaraq ərazidə meliorativ tədbirlərin davam etdirilməsinin vacib olduğunu vurğuladı. Bildirdi ki, cari ildə əlaqədar təşkilatların, xüsusilə rayon icra hakimiyyətinin köməyilə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçiriləcəkdir.

Hesabat yığıncağında iştirak edən kənd sakinlərindən Adıgözəl Əliyev, Nazim Sayılov, Xurşud Rəcəbova, Əliqulu Əliyev və başqaları nümayəndəliyin bir illik fəaliyyətini qənaətbəxş hesab etməklə, narahatlıq doğuran, çətinlik yaradan məsələlərin həllinin də vacibliyini diqqətə çatdırdılar.

Rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev qaldırılan hər bir məsələyə öz münasibətini bildirməklə yanaşı qarşıda duran vəzifələrə də aydınlıq gətirdi.

## Şəhər inzibati ərazi nümayəndəliyində

Bundan iki gün sonra - yanvarın 23-də isə rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev Neftçala şəhər inzibati dairəsi üzrə nümayəndəliyin hesabat yığıncağında iştirak etdi. Şəhər 1 saylı tam orta məktəbinin akt zalında keçirilən bu toplantıda da çoxlu sayda insan iştirak edirdi.

Nümayəndəliyin bir illik fəaliyyəti barədə hesabat verən şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə Namiq Məmmədovun sözlərindən aydın oldu ki, rayon əhalisinin 21593 nəfəri Neftçala şəhərində məskunlaşıb. Ərazidə 4 orta məktəb, 1 humanitar təmayüllü lisey, internat əsas məktəbi, 1 ibtidai məktəb, 5 məktəbəqədər uşaq tərbiyə müəssisəsi, mədəniyyət sarayı, kompüter mərkəzi, istirahət parkı, musiqi və şahmat məktəbi, mərkəzi xəstəxana kompleksi və çoxsaylı idarə, müəssisə, təşkilatlar, ticarət obyektləri, bazarlar fəaliyyət göstərir.

Hesabat dövründə şəhər inzibati ərazi nümayəndəliyinin vəsaiti hesabına 1 saylı məktəbin binasında, elektrik şəbəkə ibtidai məktəbində, 2, 3 saylı tam orta məktəblərində təmir işləri həyata keçirilmişdir. Nümayəndəlikdən maliyyələşən məktəblər elektrik, qaz, su, rabitə xidmətlərindən də yararlanmışlar. 2014-cü ildə istifadə olunmuş elektrik enerjisinə 9169.98, qaz sərfi üçün 14416, su xərci üçün 4206, istilik xərci üçün 4629, rabitə xidməti üçün 720, internet xidməti üçün 200, dezinfeksiya xidmətinə isə 2160 manat vəsait xərclənmişdir.





Sözünə davam edən məruzəçi bildirdi ki, əhalinin elektrik enerjisinə olan tələbatının ödənilməsi üçün müəyyən tədbirlərin həyata keçirilməsinə baxmayaraq rayon elektrik paylayıcı şəbəkəsinin işində nöqsan və çatışmazlıqlar da mövcuddur. Qarlı və küləkli havalarda elektrik xətlərində qəzaların baş verməsi payiz qış mövsümünə zəif hazırlığın nəticəsidir. Bəzi transformatolarda ayırıcılar olmadığından qəza baş verdikdə ümumi xətt açılır ki, bu da narazılığa səbəb olur.

Hesabat dövründə Neftçala su-kanal idarəsi tərəfindən şəhərdəki 6-cı məhəllənin su təminatının yaxşılaşdırılması, M.Ə.Rəsulzadə küçəsində 15 ildən artıq su görməyən 50-dən çox ailəyə su verilməsi, A.Cəfərov, M.Əsədov küçələrində 5 mərtəbəli yaşayış binalarında su təchizatının yaxşılaşdırılması və digər işlərin görülməsi razılığa səbəb olmuşdur. Bununla yanaşı bildirildi ki, hesabat dövründə Neftçala telekommunikasiya qovşağı əhaliyə göstərilən rabitə xidmətinin yüksəldilməsi və əhalinin sürətli genişzolaqlı internetlə təmin olunması istiqamətində geniş tədbirlər həyata keçirmişdir.

Məruzədə şəhərdə görülən abadlıq işlərindən xüsusilə geniş söhbət açıldı. Bildirildi ki, Kür çayı sahilində böyük bulvarın, Bayraq Meydanının istifadəyə verilməsi, bir sıra idarə, müəssisə və nümayəndəliyin yerləşdiyi binaların, mərkəzi kitabxana binasının, A.Cəfərov küçəsindəki yaşayış binasının fasadlarının müasir uslubda işlənməsi, müasir görünüşlü işıqlandırma sistemi ilə təmin edilməsi, H.Əliyev prospektində geniş abadlıq işlərinin görülməsi, yaşıllıqların salınması, Heydər Əliyev Mərkəzinin arxasında yeni stadionun qurulması və həyata keçirilən digər abadlaşdırma işləri sevindiricidir. Bütün bu işlərin görülməsi isə dövlət başçısı cənab İlham Əliyevin qayğı və diqqəti, rayon rəhbərinin köməyi, təşkilatçılığı sayəsində mümkün olmuşdur.



Nümayəndəlik tərəfindən 2014-cü ildə vətəndaşların ərizə, şikayət və müraciətlərinə, eləcə də yuxarı orqanlardan, idarə, müəssisə, təsərrüfat və özəl qurum rəhbərlərindən daxil olmuş sənəd və məktublara məsuliyyətlə yanaşılması, onların icrasını təmin etmək üçün təcili tədbirlərin görülməsi də diqqətə çatdırıldı. Bildirildi ki, hesabat dövründə nümayəndəliyə 85 ədəd məktub daxil olmuş, onların üzərində iş aparılmış, müzakirə edilmiş, icra olunmuş və cavablar verilmişdir. Nümayəndəlik həmin dövrdə ayrı-ayrı təşkilatlara, yuxarı orqanlara 137 ədəd məktub göndərmişdir.

Şəhər sakinləri Mürvət Həbibov, Davud Ağalarov, İbadulla Əliyev, şəhər 2 saylı tam orta məktəbinin direktoru Xəyalə Əlizadə, rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov və başqaları çıxış edərək son illər Neftçala şəhərində genişmiqyaslı abadlıq və quruculuq tədbirlərinin həyata keçirilməsinə baxmayaraq onları narahat edən bir sıra məsələləri də diqqətə çatdırdılar, bununla bağlı fikirlərini, təkliflərini bildirdilər.

Yığıncaqda iştirak edən rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev çıxış edərək cari ildə Neftçala şəhərində həyata keçiriləcək abadlaşdırma tədbirlərində şəhər inzibati dairəsi üzrə nümayəndəliyin qarşısında duran vəzifələrdən danışdı.

* * *

**İlin əvvəlindən start götürən hesabat yığıncaqları artıq başa çatmaq üzrədir. Həmin yığıncaqlarda iştirak edən rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyev, başçının birinci müavini Dilavər Əliyev, başçının müavinləri Nəriman Xəlilov, Gültəkin Sadıqova, başçı yanında fəaliyyət göstərən şuranın üzvləri Rəşid Manafov, Anar Cəfərov, Ədalət Hüseynov, Əjdər Kərimov, Telman Zahidov, başçı aparatının məsul işçiləri Əlikömək Babayev, Elşən Əmirov, Şahin Xankişiyev, Rövşən Quliyev, Fərid Əhmədov və digər şəxslər ölkəmizdə və rayonumuzda görülən işlərdən, qarşıda duran vəzifələrdən danışmış, iştirakçıları maraqlandıran suallara aydınlıq gətirmişlər.**

## Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatında 2015-ci il üçün vətəndaşların qəbulu cədvəli

| Sıra sayı | Qəbul edən məsul şəxsin vəzifəsi | Soyadı, adı, atasının adı | Qəbul günləri və qəbul saatları | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | | I | II | III | IV | V | VI |
| 1. | Rayon İcra Hakimiyyətinin başçısı | Vəliyev İsmayıl Məhərrəm oğlu | - | - | - | - | 10:00-dan | - |
| 2. | Başçının birinci müavini | Əliyev Dilavər Qənbər oğlu | - | 14:00-dan | - | - | - | - |
| | Rayon İcra Hakimiyyəti başçısı aparatının Memarlıq və tikinti şöbəsinin aparıcı məsləhətçisi (mühəndis) | İmanov Ədalət Fəraməz oğlu | | | | | | |
| 3. | Başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Xəlilov Nəriman Hüseynağa oğlu | 14:00-dan | - | - | - | - | - |
| 4. | Başçının müavini-İctimai siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Sadıqova Gültəkin Zakir qızı | - | - | 14:00-dan | - | - | - |
| 5. | Başçının müavini-Aqrar məsələlər şöbəsinin müdir əvəzi | Babayev Əlikömək Dadaşbala oğlu | - | - | - | 14:00-dan | - | - |
| 6. | Rayon İcra Hakimiyyəti başçısı aparatının Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Cəfərov Anar Cəfər oğlu | - | - | - | - | - | 14:00-dan |
| | Rayon İcra Hakimiyyəti başçısı aparatının Hüquq şöbəsinin müdiri | Hüseynov Ədalət Fətalı oğlu | | | | | | |

Qeyd:

1. Milli Qəhrəmanlar və onların ailə üzvləri, şəhid ailələrinin üzvləri, Qarabağ əlilləri və digər imtiyazlı vətəndaşlar müraciət etdikdə növbədənkənar qəbul olunurlar.
2. Rayon İcra Hakimiyyəti başçısının qəbul günləri bayram günlərinə düşdükdə, qəbul günləri növbəti iş gününə keçirilir.
3. Qəbulla bağlı əlaqə telefon nömrəsi: 0-21-26-3-42-43
4. Rayon İcra Hakimiyyəti başçısı aparatına vətəndaşlar tərəfindən mütəmadi qaydada müraciət etmək üçün qaynar xətt əlaqə nömrəsi: 0-21-26-3-42-57
5. Qəbulla bağlı elektron müraciətlər üçün e-mail ünvanı: mail@neftc hala-ih.gov.az
6. Vətəndaşların qəbulu Rayon İcra Hakimiyyəti başçısı aparatının "Vətəndaşların qəbul otağı"nda keçirilir.
7. Vətəndaşlar qəbulla bağlı müraciət edərkən şəxsiyyət vəsiqələrini təqdim etməlidirlər.

## Vətəndaşların nəzərinə!

Hörmətli neftçalalılar, Sizi narahat edən məsələlərlə, yaranmış hər hansı çətinlik və problemlərlə əlaqədar həftənin bütün günlərində və saatlarında Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatında fəaliyyət göstərən **"Qaynar xətt"**ə müraciət edə bilərsiniz. Telefon: **(0-21-26) 3-42-57**

Elektron müraciət etmək üçün **E-mail ünvanı: mail@neftchala-ih.gov.az**

## Nazir və komitə sədri rayonumuzda vətəndaşları qəbul etmişlər

Ölkəmizdə insanlara göstərilən xidmətlərin yaxşılaşdırılması, onların bu sahədəki ehtiyaclarının daha dolğun ödənilməsi istiqamətində dövlət səviyyəsində ardıcıl tədbirlərin həyata keçirilməsi vətəndaşlar tərəfindən böyük razılıq hissilə qarşılanır. Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq ölkənin mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinin yerlərdə vətəndaşların qəbulunu davam etdirmələri də bununla əlaqədardır.



Növbəti belə tədbir rayonumuzda yanvarın 16-da olmuşdur. Həmin gün Neftçalaya gələn respublika iqtisadiyyat və sənaye naziri cənab Şahin Mustafayev rayon sakinləri ilə yanaşı qonşu Salyan və Biləsuvar rayonlarından gələn vətəndaşları da qəbul etmişdir. Qurumun müvafiq struktur rəhbərlərinin iştirak etdikləri qəbulda vətəndaşlar onları narahat edən, maraqlandıran bir çox məsələləri cənab nazirin diqqətinə çatdırmışlar.

Müraciət edən hər bir şəxs diqqətlə dinlənilmişdir. Qaldırılan məsələlərin əksəriyyəti elə yerindəcə, yubanmadan həll edilmişdir. Araşdırılmağa ehtiyacı olan bir sıra müraciətlər isə qeydiyyata götürülmüş, onların operativ həlli üçün nazirliyin müvafiq struktur rəhbərlərinə konkret tapşırıqlar verilmişdir.

Qəbul zamanı nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər də olmuşdur. Belə müraciətlər də diqqətdən kənarda qalmamışdır. Onlar qeydiyyata alındıqdan sonra müvafiq strukturlara göndərilmişdir.

Görüşdən sonra vətəndaşlar arasında apardığımız sorğudan aydın oldu ki, onlar qəbuldan razı qalmışlar.

* * *

Rayonumuzda vətəndaşların növbəti qəbulu isə yanvarın 23-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev tərəfindən həyata keçirilmişdir. Heydər Əliyev Mərkəzində təşkil olunan qəbulda rayon sakinlərilə yanaşı Salyan, Biləsuvar, Cəlilabad rayonlarından gələn vətəndaşlar da iştirak etmişlər.



Görüşdə əsas bölgə üzrə gömrük məsələləri ilə bağlı müraciətlər dinlənilsə də, digər məsələlərə də həssaslıqla yanaşılmışdır. Qəbula gələn vətəndaşların hər birini diqqətlə dinləyən komitə sədri qaldırılan məsələlərin əksəriyyətinin yerindəcə həll edilməsi barədə konkret tapşırıqlar vermişdir. Araşdırılmasının müəyyən vaxt tələb etdiyi müraciətlərin qanunamüvafiq qaydada həll olunması isə DGK-nin müvafiq idarə və strukturlarına həvalə edilmişdir.

## Kənddə "mavi alov" şölələndi

Yeni il ərəfəsində rayonumuzun Kürqarabucaq kəndində əsl bayram sevinci yaşanırdı. Həmin gün kəndə qaz veriləcəkdi. Bu münasibətlə təşkil olunan təntənəli mərasimi giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Nəriman Xəlilov açdı. Qeyd etdi ki, son illər regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində rayonumuzda da geniş tədbirlər həyata keçirilməkdədir. Kürqarabucaq kəndindəki bu mərasim də həmin tədbirlərin davamıdır.



Tədbirdə iştirak etmək üçün Bakıdan gələn "Azəriqaz" İstehsalat Birliyinin səlahiyyətli nümayəndəsi İbrahim Kərbalayev çıxış edərək Kürqarabucaq kənd sakinlərini əlamətdar hadisə münasibətilə ürəkdən təbrik etdi. O eyni zamanda bildirdi ki, yaxın müddətdə qonşu kəndlər də qazla təchiz olunacaq, kəndlilərin yanacağa olan ehtiyacı tam ödəniləcəkdir. Rayon qaz istismar idarəsinin rəis müavini Mehrac Gözəlov həm çalışdığı müəssisə adından, həm də yaşadığı inzibati ərazi vahidinin sakini kimi ürək sözlərini dilə gətirdi. Kənd sakinləri Mirmehdi Məmmədov, Rabil Nəsirov, Vüqar Aslanov və başqaları çıxış edərək dövlətimizin başçısı, möhtərəm Prezidentimiz İlham Əliyevə, rayon rəhbərliyinə, bu xeyirxah işdə zəhməti olan bütün insanlara dərin minnətdarlıqlarını bildirdilər.



Çıxış edənlər xüsusi olaraq qeyd etdilər ki, kəndə mavi yanacağın verilməsinin ən əhəmiyyətli cəhətlərindən biri qışda yaşıllıqların məhv edilərək odun kimi yandırılmasının qarşısının alınmasıdır. Bu isə ekoloji baxımdan ən vacib taleyüklü məsələlərdəndir. Daha kənd sakinləri min bir zəhmətlə əkib-becərdikləri bağ-bağçalarına, barlı-bəhrəli ağaclara məcburiyyət qarşısında qalıb alternativ yanacaq mənbəyi kimi baxmayacaqlar.

Daha sonra ucaldılmış məşəl təntənəli surətdə alovlandırıldı. Kənd sakinləri bu mənzərəni elə sevinclə, elə fərəhlə alqışladılar ki, bunu sözlə ifadə etmək mümkün deyildi. Bu, əsl sadə xalq sevinci, dövlətimizə və dövlətçiliyimizə sonsuz məhəbbətin təntənəsi idi.

**Zabil PƏRVİZ**

## Yarmarkalar hamının ürəyindəndir

Son illər rayonumuzda ticarət yarmarkalarının keçirilməsi ənənə halını almışdır. Şəhərimizdə inşa olunan yeni ticarət mərkəzi istifadəyə verildikdən sonra belə yarmarkaların sayı daha da genişlənmişdir. İndi elə bir əlamətdar gün, bayram olmur ki, bununla əlaqədar mərkzədə geniş çeşiddə ticarət yarmarkaları təşkil edilməsin.



Belə əziz, gözəl bayramları isə adamlar daim geniş hazırlıqla qarşılamağa, zəngin süfrə açmağa çalışırlar. Bunu nəzərə alaraq ticarət mərkəzində təşkil olunan və günlərlə davam edən yarmarkalar daim rayon sakinlərinin ürəyindən olur. Ticarət mərkəzinə gələnlər istədikləri kənd təsərrüfatı və ərzaq məhsullarını ala bilirlər. Özü də bazar qiymətlərindən xeyli ucuz. Bu da insanlarda xoş əhvali-ruhiyyə yaradır, onların bayram sevinclərini daha da artırır. Mərkəzdə olduğumuz günlərdə biz də bunun canlı şahidləri oluruq. Adamlar belə ucuzluq, zənginlik yaratdıqlarına görə rayon rəhbərliyinə minnətdarlıqlarını bildirirlər.

Son günlər ticarət mərkəzində mal çeşidlərinin daha da artması, yaranan zənginlik buraya gələnlərin sayını getdikcə artırır. Rayon sakinləri mərkəzdəki xidmətdən həmişə razı qalırlar.

# DÖNÜB GERİ BAXANDA

## Sən necə də dəyişdin, gözəlləşdin, əziz, doğma Neftçala

Yola saldığımız il unudulmaz bir dövr, mərhələ kimi qaldı yaddaşımızda. Dövlət başçısı cənab İlham Əliyevin düşünülmüş, balanslaşdırılmış siyasi kursu respublikamızın dinamik sosial-iqtisadi inkişafının davamlı olmasına, xalqın yaşayış səviyyəsinin daha da yüksəldilməsinə, milli və dövlətçilik maraqlarının təmin edilməsinə xidmət etdi. Dünyanın mütərəqqi fikirli, nüfuzlu politoloq və ekspertləri Azərbaycanın siyasi-diplomatik, sosial-iqtisadi sahələrdəki nailiyyətlərini dönə-dönə vurğuladılar, bu barədə geniş söhbət açdılar.





Dəyişən, inkişaf edən təkcə respublikamızın paytaxtı, Bakı şəhəri olmadı. Ölkənin regionları, rayonları da dəyişərək inkişaf etdilər, müasirləşdilər, yeni-yeni nailiyyətlərə imza atdılar. Doğma Neftçalamızın son illərdəki, xüsusilə yola saldığımız 2014-cü ildəki göstəriciləri, qazandığı böyük uğurlar, buradakı sürətli yeniləşmə, müasirləşmə prosesi buna əyani misaldır. Bu yüksəliş, bu inkişaf hər bir rayon sakinini, hər bir neftçalalını ürəkdən sevindirir, qəlbində sonsuz qürur hissi doğurur. Onlar bu günləri, xoş növrağı çox arzulamışdılar.





Bir neçə il bundan qabağa kimi neftçalalılar, xüsusilə Neftçala şəhərində yaşayanlar qonaq gələndə xəcalət çəkdiklərini gizlətmirdilər, bunu dönə-dönə vurğulayırdılar. Ona görə ki, qonağı harasa aparmaq, nəyisə göstərmək üçün layiqli bir yer tapa bilmirdilər. Halbuki, həmin dövrdə başqa rayonlarda, rayon mərkəzlərində geniş quruculuq, abadlıq işləri həyata keçirilirdi. Onlar gündən-günə abadlaşır, müasirləşirdilər. Neftçalada isə əsaslı, fundamental bir iş nəzərə çarpmırdı. Yenilik arzusu ilə yaşayan neftçalalılar da burada əsaslı quruculuq işlərinin başlayacağı günü böyük səbirsizliklə, intizarla gözləyirdilər.

Belə bir gün, dövr Neftçalada 2011-ci ildən başlandı. Özü də birinci təmizlikdən, səliqə-sahmandan. Uzun illər rayonda bu mühüm məsələyə lazımi səviyyədə diqqət yetirilmədiyindən Neftçala şəhərində, ayrı-ayrı yaşayış məntəqələrində antisanitar vəziyyət yaranmışdı. Kanalizasiya sistemləri tamamilə bərbad hala düşmüşdü. Çoxlu sayda insanların gəlib getdiyi şəhər bazarında sözün əsl mənasında natəmizlik hökm sürürdü. Şəhərin açıq kanalizasiya sistemindəki, "Axmaz" gölündəki acınacaqlı mənzərələr adamın ürəyini ağrıdırdı. Yeni rəhbərliyin fəaliyyətə məhz bu məsələlərdən başlaması şəhər sakinlərinin böyük razılığına, minnətdarlığına səbəb oldu, onları ürəkdən sevindirdi.

Çox keçmədi, həyata keçirilən tədbirlər nəticəsində mərkəzi bazarın mənzərəsi xeyli dərəcədə dəyişdi, illərdən bəri yaşayış binalarının ətrafında yığılıb qalmış, hər tərəfə səpələnmiş, topalanmış zibillər daşınaraq zərərsizləşdirildi, ayrı-ayrı ərazilərdəki çirkab dərələri doldurularaq hamarlandı. Şəhər mədəniyyət və incəsənət sarayının, "Kapitalbank"ın Neftçala filialının arxa hissələrindəki və digər yerlərdəki çirkablıqlar, kol-kosluqlar, ətrafa üfunət yayan şəhərin açıq kanalizasiya sistemləri böyük çətinliklər bahasına olsa da təmizləndi. İllərdən bəri pis qoxudan, natəmizlikdən, antisanitar vəziyyətdən əziyyət çəkən insanların rayon rəhbərliyinə, bu işləri görənlərə minnətdarlıqlarını bildirmək üçün redaksiyamıza üz tutmaları heç də təsadüfi deyildi.

Şəhərin su-kanalizasiya sistemindəki çatışmazlıqlar, nöqsanlar aradan qaldırılmasaydı mövcud vəziyyət yenidən təkrarlanacaq, görülən işlərin heç bir faydası olmayacaqdı. Ona görə bu istiqamətdə də ardıcıl tədbirlər həyata keçirilməyə başlandı. Ayrı-ayrı ərazilərdəki su anbarlarının, Kür çayının sahilindəki mərkəzi anbarların təmizlənərək qaydaya salınmasını, nasos aqreqatlarının, su və kanalizasiya xətlərinin yeniləri ilə əvəz olunmasını, Həsənabad qəsəbəsinin, Z.O.Qoltuq və digər yaşayış məntəqələrinin su təchizatının yaxşılaşdırılmasını, xeyir-şər mərasimləri üçün nəzərdə tutulan talvarların (besedkaların) tamamilə yenidən qurulmasını və həyata keçirilən digər tədbirləri insanlar bu gün də böyük razılıq hissi ilə, minnətdarlıq duyğuları ilə xatırlayırlar.

Bunları sözdə demək, sadalamaq asandır. Böyüklüyündən, kiçikliyindən asılı olmayaraq, bu tədbirlərin hər birinin arxasında gərgin əmək, yüksək mütəşəkkillik durur. Əgər o vaxtlar qüvvələr səfərbər olunmasaydı, mütəşəkkillik yaradılmasaydı, yəqin ki, qısa zaman kəsiyində bu qədər işləri həyata keçirmək mümkün olmazdı.

2012-ci il yaddaşımızda, hafizəmizdə genişmiqyaslı təmizlik işlərinin aparılması, hər tərəfdə səliqə-sahman yaradılması, ətrafın abadlaşdırılması, su-kanalizasiya sistemlərinin yeniləşdirilməsi ili kimi qaldı. Bunlar isə daha böyük, daha əhəmiyyətli layihələrin həyata keçirilməsi üçün hazırlıq mərhələsi idi. Bu, doğrudan da belə oldu. 2013-cü ildən rayonumuzda yeni mərhələyə daxil olan abadlıq və quruculuq işləri 2014-cü ildən daha da genişlənməyə, sürətlənməyə başladı. Neçə-neçə yeni layihələrin icrasına, həyata keçirilməsinə start verildi. Kür sahilində kol-kos basmış böyük bir ərazidə park-bulvar kompleksinin salınması, Bayraq Meydanının inşa olunması çoxlarına xəyal kimi gəlirdi. Amma günlər, aylar keçdikcə onlar bu layihələrin də reallaşacağına, gerçəkləşəcəyinə inandılar. Daha sonra rayon icra hakimiyyətinin yeni inzibati binasının, Heydər Əliyev Mərkəzinin tikintisinə, Ulu Öndərin adını daşıyan prospektin tamamilə yenidən qurulmasına başlandı. Ərazilərdə yeni parkların salınması, yaşayış və inzibati binaların dam örtüklərinin, fasad hissələrinin təzələnməsi, küçə və meydanlarda, parklarda, binalarda yeni işıqlandırma sistemlərinin qurulması və digər abadlaşdırma tədbirləri şəhərimizin, bütövlükdə rayonumuzun ümumi mənzərəsini dəyişir, ona yeni görkəm verirdi. Bir-birinin ardınca inşa olunan, əsaslı təmir edilən yeni təhsil ocaqları, uşaq tərbiyə müəssisələri qapılarını bir-bir uşaqların üzünə açırdı, onları qoynuna alırdı. Ötən ilin yeni dərs ilində rayonun Yuxarı Qaramanlı, Aşağı Surra və Kürkənd kəndlərində müasir məktəblərin istifadəyə verilməsi təhsilə, gənc nəslin inkişafına göstərilən qayğının yeni parlaq təzahürü idi.

"Axmaz" gölündəki antisanitar vəziyyət, baxımsızlıq üzündən böyük bir sahənin çirkab, xəstəlik mənbəyinə çevrilməsi çox ciddi narahatlıq doğuran məsələlərdən idi. Göldə ekoloji sağlamlaşdırma, abadlaşdırma tədbirlərinə başlananda bu, təkcə həmin ərazidə yaşayan insanların deyil, bütün şəhər əhalisinin ürəyindən oldu. Bu işlərin səylə, yeni qüvvə ilə davam etdirilməsi nəzərdə tutulan işlərin tezliklə başa çatdırılacağına inam yaradır.

Böyük zəhmətlə, əməklə dolu günlər keçdikcə şəhərimiz gözlərimiz önündə beləcə dəyişir, yenidən qurularaq müasirləşirdi. Rayon icra hakimiyyətinin yeni inzibati binasında, Heydər Əliyev Mərkəzində, Kür sahilindəki bulvarda, Bayraq Meydanında, Şəhidlər kompleksində və digər obyektlərdə işlərin tamamlanması, Heydər Əliyev prospektində kompleks tədbirlərin həyata keçirilməsi, küçə və meydanların başdan-başa asfaltlaşdırılması, işıqlandırılması şəhərimizin simasını kökündən dəyişmişdi. Daha neftçalalılar qonaqdan qaçmırdılar, əksinə, daha çox qonağın, ən başlıcası bu işlərin gerçəkləşməsi, reallaşması üçün köməyini, qayğısını əsirgəməyən möhtərəm Prezidentimiz İlham Əliyevin, nəcib xüsusiyyətləri ilə milyonların qəlbinə hakim kəsilmiş ölkənin birinci xanımı Mehriban Əliyevanın yolunu gözləyirdilər.

Çox hörmətli Prezidentimiz gəldi. Özü də hər birimiz üçün çox əziz olan bir gündə — mayın 28-də, Respublika Günündə. Neftçalalılar əziz Prezidentlərini gül-çiçəklə qarşıladılar. Rayonumuzla yaxından tanış olan dövlətimizin başçısı görülən işlərdən razı qaldı, dəyərli məsləhət və tövsiyələrini verdi. Möhtərəm Prezidentimizin neftçalalılarla səmimi görüşü, onların qarşısındakı tarixi nitqi bizim üçün xüsusilə unudulmazdır. Dövlət başçısı öz nitqində işimizə, fəaliyyətimizə yüksək qiymət verməklə yanaşı qarşıda duran vəzifələrə, rayonumuzda həyata keçiriləcək tədbirlərə də aydınlıq gətirdi. Əmin olduq ki, Salyan-Neftçala avtomobil yolu, xəstəxana kompleksi əsaslı təmir olunacaq, Olimpiya İdman Kompleksi tikiləcək, yeni iş yerləri açılacaq, rayonun qazlaşdırılması, keyfiyyətli içməli su ilə təminatı yaxşılaşdırılacaq və digər tədbirlər həyata keçiriləcəkdir. Dövlət başçısının "Neftçala rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında"kı və "Neftçala rayonunun Şorkənd-Beştalı-Bankə-Şirvanlı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında"kı 29 may 2014-cü il tarixli sərəncamları bu əminliyi daha da artırdı. Ali dövlət sənədlərində konkret vəsaitlərin ayrılması rayonumuzda başlanmış quruculuq, abadlıq işlərinin yeni vüsətlə davam etdiriləcəyindən xəbər verirdi. Şübhəsiz, bu, rayon əhalisi arasında sonsuz razılıq və minnətdarlıq duyğuları doğurmaya bilməzdi. O vaxt redaksiyamızın poçtuna daxil olan məktublar bunu bir daha əyani şəkildə göstərirdi.

Sevinirik ki, başlanmış işlər bu gün də davam etdirilir. "Axmaz"dakı işlərin yeni mərhələyə daxil olması, gölün üstündən yeni yolun salınması, Kürqarabucaq kəndinin qazla təmin olunması, bu işlərin ardıcıllıqla davam etdirilməsi və digər tədbirlər fərəh doğurur. Şübhəsiz ki, rayon mərkəzi xəstəxanasında, Olimpiya idman kompleksində də işlər davam etdiriləcək. Şorkənd-Şirvanlı, Neftçala-Salyan asfalt yolları əsaslı şəkildə qaydaya salınacaq. Neftçala şəhərinin, ayrı-ayrı qəsəbə və kəndlərin yenidən qurulması ilə bağlı hazırlanmış yeni layihələr bütövlükdə rayonumuzun gözəlləşməsinə, müasirləşdirilməsinə şərait yaradacaq. 2014-cü il kimi 2015-ci il də layiqli töhfələri, uğurlu nəticələrilə bizi sevindirəcək.





# NEFTÇALA TƏHSİLİNİN ÖTƏN İLKİ QALİBLƏRİ

**Son illər ictimai həyatımızın digər sahələri kimi təhsildə də layiqli qələbələr, uğurlar qazanılır, əldə olunan nailiyyətlər durmadan genişləndirilir. Bunun başlıca səbəbi dövlətin bu sahəyə göstərdiyi böyük qayğı və diqqətdir. Prezident İlham Əliyevin 2013-2014-cü tədris ilində keçirilmiş "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqələrinin qaliblərinin mükafatlandırılması ilə bağlı 17 dekabr 2014-cü il tarixdə imzaladığı sərəncamlar buna əyani misaldır.**

**Həmin sərəncamlara əsasən mükafatlandırılanların sırasında Neftçala şəhər 4 saylı tam orta məktəbi və şəhər 2 saylı tam orta məktəbinin Əməkdar müəllimi Girami Razzaqova, Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin Əməkdar müəllimi Seyran Səfərov, "Muğan" liseyinin müəllimi Vüqar Dadaşov da vardır. 4 saylı tam orta məktəb "Ən yaxşı ümumtəhsil məktəbi", Girami Razzaqova, Seyran Səfərov, Vüqar Dadaşov isə "Ən yaxşı müəllim" müsabiqəsinin qalibləridir. Onları ürəkdən təbrik edir, gələcək fəaliyyətlərində daha böyük uğurlar arzulayırıq.**

## ELTON HƏBİBOV ADINA 4 SAYLI TAM ORTA MƏKTƏB — "İLİN ƏN YAXŞI ÜMUMTƏHSİL MƏKTƏBİ"

Elton Həbibov adına Neftçala şəhər 4 saylı tam orta məktəbi öz uğurları ilə həmişə seçilib, həmişə fərqlənib. Bunu təmin edən başlıca səbəb isə güclü nizam-intizam, səmərəli təlim prosesi, işə olan böyük sevgidir. Bu da öz növbəsində rayon təhsilinin inkişafına daim öz töhfələrini vermiş, onun tərəqqisində həlledici rol oynamışdır. Sevindirici haldır ki, bu ənənə son illərdə özünü daha qabarıq şəkildə göstərir. Məktəbin cari dərs ilində fərqlənərək "İlin ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olması da çəkilən birgə zəhmətin, həyata keçirilən kompleks tədbirlərin nəticəsidir. Respublikada fəaliyyət göstərən çoxlu sayda orta ümumtəhsil məktəbləri arasında birincilik əldə etmək doğrudan da asan başa gəlməmişdir. Bunun üçün illərlə gərgin əmək sərf etmək lazım gəlib, zəhmət çəkilib, təhsil ocağında səmərəli, keyfiyyətli təlim prosesi qurulub, kollektivin qüvvəsi düzgün istiqamətləndirilib.



"İlin ən yaxşı məktəbi" müsabiqəsində şəhər 4 saylı tam orta məktəbinin qalib olması xəbəri hər birimizi ürəkdən sevindirsə də, bu böyük uğurdan daha çox zövq alan, qürur duyan məktəbin pedaqoji kollektivi oldu. Biz də bu münasibətlə adı gedən məktəbə baş çəkdik, bir sıra şəxslərlə görüşdük, məktəbin direktor əvəzi, məktəbdənkənar və sinifdənxaric işlər üzrə müavin Şəfəq xanım Balaşova ilə həmsöhbət olduq.

Səmimi söhbət əsnasında Şəfəq müəllim bildirdi ki, bu uğur bütün müəllim və şagird kollektivinin müvəffəqiyyətidir. Qeyd etdi ki, 625 şagirdin və 80 müəllimin birgə çalışdığı məktəbdə 600-dən çox bal toplayan məzunların sayının hər il artması buradakı yüksək təlim üsulunun əyani sübutudur. Ötən tədris ilində məktəbi bitirən 46 məzundan 30-nun respublikamızın ali məktəblərinə qəbul olunması da bunu nəzərə çatdıran başlıca faktdır. Şəfəq xanım eyni zamanda vurğuladı ki, IX-XI siniflərdə rayon üzrə keyfiyyət faizinin yüksək dərəcədə olması ibtidai təhsildən başlayaraq təlim keyfiyyətinin üstünlüyü ilə bağlıdır. Buraxılış və qəbul imtahanlarında əldə olunan göstəricilər gərgin əməyin bəhrəsidir. Bu işdə məktəbin müəllimləri tədris prosesinə yüksək məsuliyyətlə, əsl qayğıkeşliklə yanaşır, bilik və bacarıqları ilə şagirdlərin təhsilə yiyələnməsində böyük əmək sərf edirlər. Şəfəq xanım eyni zamanda vurğuladı ki, müəllimlər şagirdlərə təkcə elm, bilik verməklə kifayətlənmir, həm də onları vətəndaş ruhunda tərbiyələndirir, cəmiyyətimiz üçün gərəkli şəxsiyyət formalaşdırırlar. Sözünə davam edərək o bu sahədə fədakarlıq göstərən müəllimlərdən respublikanın Əməkdar müəllimi Gülnaz Mehdiyevanın zəhmətini xüsusi qeyd etdi. Dedi ki, bu, danılmaz faktdır. Sonra o, Əlövsət Rzayev, Məlahət Əliyeva kimi müəllimlərin səmərəli fəaliyyətlərinə görə "Tərəqqi" medalı ilə təltif edildiklərini vurğuladı. Təlim-tərbiyə işləri üzrə direktor müavini Gülbəniz Hətəmovanın işgüzar fəaliyyətinin məktəbin inkişafına öz müsbət təsirini göstərdiyini diqqətə çatdırdı.



Daha sonra Şəfəq xanım məktəbin inkişafında, qarşıya çıxan çətinlik və problemlərin aradan qaldırılmasında onlara daim yardımçı olan şəxslərin adlarını dilə gətirməyi unutmadı. İlk növbədə o, rayonumuzda təhsilin inkişafına, tərəqqisinə geniş imkanlar yaradan rayon icra hakimiyyətinin başçısı hörmətli İsmayıl Vəliyevin adını vurğuladı, icra hakimiyyəti başçısının ictimai-siyasi və humanitar məsələlər üzrə müavini Gültəkin xanım Sadıqovanın məktəblə bağlı qayğılarından danışdı. Dedi ki, rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov, şöbənin metodisti Əlövsət Rzayev də uğurlarımızın genişlənməsi üçün səylərini əsirgəməyiblər. Yeri gəlmişkən deyək ki, Şəfəq xanım özü də bu məktəbin məzunu olmuşdur. Onun da üzərində müəllimlərin zəhməti az olmayıb. O da bu zəhmətin bəhrəsidir. Bunu xüsusi məhəbbətlə vurğulayan Şəfəq xanım dedi: "Doğma məktəbimizin adını bu müsabiqədə qaliblər sırasında görmək ən böyük arzum idi. Buna nail olsaq da, təhsil nazirinin müavini, təşkilat komitəsinin sədri Firudin Qurbanovun iştirak etdiyi komissiya üzvlərinin qarşısında belə bir təkliflə çıxış etdim ki, gələcəkdə bu cür müsabiqələrin sayı daha çox olsun, Azərbaycan məktəbləri təkcə respublika müsabiqələrində deyil, beynəlxalq müsabiqələrdə də fəal iştirak etsinlər. Bu, dünyanın böyük məktəbləri ilə əməkdaşlıqların genişlənməsində çox mühüm rol oynayar."

Söhbət zamanı təhsillə bağlı bir çox başqa məsələlərə də toxunuldu. Şəfəq müəllimə vurğuladı ki, məktəbdə təşkilati məsələlərə diqqətin artırılması vacibdir, il boyu keçirilən müxtəlif tədbirlər, yığıncaqlar həm təhsilə kömək göstərir, həm də şagirdlərin vətənpərvərlik hissini artırır. 9 noyabrda — Dövlət Bayrağı Günündə məktəbdə keçirilən tədbir unudulmaz olub. Bu tədbirdən sonra məktəbin müəllim kollektivi şagirdlərlə birlikdə əllərində bayraqlar və gül-çiçək dəstələri Dövlət Bayrağı Meydanına yürüş edib, tədbiri burada davam etdiriblər.

Şəfəq müəllimə şagird-müəllim-valideyn münasibətləri barədə də danışdı, bu işin də lazımi qaydada olduğunu söylədi. Bu isə təlim-tədris işinin mütəşəkkilliyini daha da artıran başlıca amillərdən biridir.

Məktəbdəki səliqə-sahman, burada olan nizam-intizam diqqəti hər addımda cəlb edirdi. Elə bu da bir uğur, bir nailiyyətdir desək səhv etmərik. Belə olmasa böyük qələbələri təmin etmək mümkün olmur. Məktəbdən xoş təəssüratla ayrıldıq. Sonda bir daha məktəbin bütün müəllim kollektivinə, bu kollektivi özünə doğma sayan Şəfəq xanıma, şagirdlərə bundan sonra da öz səmərəli fəaliyyətlərində uğurlar dilədik, həmişə ön sıralarda addımlamağı arzuladıq.

**Zaur ƏSGƏROV**

## "ƏN YAXŞI MÜƏLLİM"LƏRİMİZ

### Seyran SƏFƏROV, — Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin fizika müəllimi



Qaliblərin ömür yoluna nəzər salsaq uğurun haradan qaynaqlandığını əyani şəkildə görmüş olarıq. Xıllı qəsəbə 1 saylı tam orta məktəbinin fizika müəllimi Seyran Səfərovun ömür yolu buna bir nümunədir. 1970-ci ildə həmin qəsəbədə dünyaya göz açan Seyran dərslərini əla və yaxşı qiymətlərlə oxuduğundan elə orta təhsilini başa vurduğu ildə də sevib-seçdiyi ixtisas üzrə Bakı Dövlət Universitetinin fizika fakültəsinə qəbul olunub. Şübhəsiz ki, ali məktəb həyatı orta məktəb həyatı deyil. Burada tədris olunan elmləri daha dərindən öyrənmək, sevib-seçdiyin ixtisasa hərtərəfli yiyələnmək tələb olunur. Bunun üçün isə gecəni gündüzə qatmalısan, zəhmət çəkməlisən, əziyyətlərə qatlaşmalısan.

Gənc Seyran da belə edib. Ona görə də tələbə yoldaşlarından seçilib, müəllimlərinin diqqətini cəlb edib, ali təhsilini uğurla başa vuraraq fizika müəllimi ixtisasına yiyələnib. O vaxtdan da doğma qəsəbəsindəki 1 saylı tam orta məktəbdə çalışır, şagirdlərinə fizika fənninin sirlərini öyrədir. Özü də böyük sevgi ilə, yanğı ilə, əsl müəllim peşəkarlığı ilə. Qazandığı uğurların sirri də elə bundadır. Elə il olmur ki, şagirdləri tədris etdiyi fizika fənni üzrə respublika olimpiadalarında, müsabiqələrdə uğur qazanaraq rayonumuza başucalığı gətirməsinlər. Onlar çalışdıqları, işlədikləri ünvanlarda da seçilir, fərqlənir, müəllimlərinin inamını, etimadını layiqincə doğruldurlar.

Şübhəsiz ki, bunlar nəticəsiz qala bilməzdi. Seyran Səfərov Prezident İlham Əliyevin sərəncamı ilə 2005-ci ildə respublikanın Əməkdar müəllimi fəxri adına layiq görüləndə buna heç kim təəccüblənmədi. Seyran müəllim bunu öz halal zəhməti, peşəsinə bəslədiyi məhəbbəti ilə qazanmışdı. Sonrakı illər də bir-birindən uğurlu gəldi. 2009-cu ildə dövlət başçısının sərəncamına əsasən "İlin ən yaxşı müəllimi" müsabiqəsi qaliblərinin adları açıqlananda daha çox sevinənlərdən biri də Seyran müəllim oldu. İndi o yenə də müsabiqə qalibidir. Növbəti dəfə "İlin ən yaxşı müəllimi" adını qazanmışdır. Bununla yanaşı Seyran Səfərov nümunəvi işinə görə dəfələrlə Fəxri fərmanlarla, diplomlarla mükafatlandırılmış, təşəkkürlərə layiq görülmüşdür. Bu bir daha göstərir ki, çəkilən zəhmət doğrudan da öz bəhrəsini verir. İnsan bütün uğurları öz zəhmətilə, işinə, peşəsinə bağlılığı ilə qazanır. Necə ki, Seyran müəllim qazanıb.

### Girami RAZZAQOVA, — şəhər 2 saylı tam orta məktəbinin ingiliş dili müəllimi



Halal zəhmət, işinə, peşəsinə vurğunluq, öyrənib öyrətmək həvəsi digər bir şəxsə — şəhər 2 saylı tam orta məktəbinin ingilis dili müəllimi Girami Razzaqovaya da başucalığı gətirib, el hörməti qazandırıb. Orta məktəbi başa vurduqdan sonra təhsilini Azərbaycan Dillər Universitetində davam etdirən Giraminin xarici dillərə, xüsusilə ingilis-fransız dillərinə olan böyük həvəsi də elə burada yarandı. Bu dillərin incəliklərinə, xüsusiyyətlərinə dərindən yiyələnmək üçün bütün çətinliklərə dözdü, səyini, bacarığını əsirgəmədi. Əvəzində istədiyinə nail oldu, universiteti yüksək qiymətlərlə başa vurdu.

O vaxtdan taleyini müəllimlik peşəsinə bağlayan Girami Razzaqova öyrəndiklərini, bildiklərini eyni məhəbbətlə, eyni həvəslə övladları qədər sevdiyi şagirdlərinə də öyrədir, onların uğurları, yaxşı vətəndaş olmaları üçün əlindən gələni əsirgəmir. O, peşəsini, sənətini necə sevirsə, peşəsi, sənəti də onu eləcə ucaldır, hörmətə, izzətə çatdırır. 2009-cu ildə "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi olan Girami müəllim 2011-ci ildə daha yüksək ada — respublikanın Əməkdar müəllimi fəxri adına layiq görülüb. 2014-cü ilin dekabrı da onun üçün unudulmaz olaraq qalacaq. Ona görə ki, Girami müəllim dövlət başçısı cənab İlham Əliyevin sərəncamı ilə "İlin ən yaxşı müəllimi" adını ikinci dəfə məhz ötən ilin sonunda qazanıb.

Bütün bu uğurlar Girami Razzaqovaya heç də asan başa gəlməyib. O, respublikamızda öyrənməklə kifayətlənməyərək dəfələrlə Amerikanın, Şimali Kiprin və digər ölkələrin tanınmış universitetlərində olub, mühazirələrə qulaq asıb, çətin müsabiqələrin iştirakçısı olub. Aldığı sertifikatlar, layiq görüldüyü mükafatlar yüksək biliyinin bəhrəsidir.

Seçilmək, fərqlənmək, nəyinsə əzizi, giramisi olmaq hər adama nəsib olmur. Görünür bu adın ona verilməsində də bir hikmət var. Girami müəllim ona verilmiş bu adı həyatda əməli ilə doğruldub, peşəsinin, sənətinin doğrudan da seçiləni, giramisi olub. Bu ad sənə halaldır.

### Vüqar DADAŞOV, — humanitar təmayüllü "Muğan" liseyinin tarix müəllimi



Rayonumuzdan "İlin ən yaxşı müəllimi" adına layiq görülən üçüncü şəxs — Vüqar Dadaşov isə hələ gəncdir. Bakı Dövlət Universitetini başa vurduqdan sonra cəmi səkkiz ildir ki, "Muğan" liseyində müəllim kimi fəaliyyət göstərir. Vüqar müəllimi də başqalarından fərqləndirən əsas xüsusiyyət çalışqanlığı, peşəsinə olan dərin hörməti, məhəbbətidir. Məktəbin direktoru Əsəd Səlimov da onun haqqında xoş sözlər söylədi, kollektiv arasındakı nüfuzundan, səmimiyyətindən ürəkdolusu danışdı. Əminliklə vurğuladı ki, Vüqar müəllimin uğurları hələ qabaqdadır.

Vüqar Dadaşov təkcə dərsini deməklə kifayətlənmir. "Mədət" qeyri-hökumət təşkilatının Təhsil Nazirliyilə həyata keçirdiyi layihələrdə də fəal iştirak edir, təlimçi kimi bilik və bacarığını, bu sahədəki qabaqcıl təcrübəni, yenilikləri öz həmkarlarına həvəslə öyrədir. Yəqin onun seçilənlərdən olması, "İlin ən yaxşı müəllimi" adına layiq görülməsi də bununla bağlıdır.

Vüqar müəllimin gələcəyinə biz də inanırıq. İnanırıq ki, peşəkarlıq, fəallıq, işləmək, çalışmaq həvəsi onu daim irəli aparacaq, yeni-yeni nailiyyətlərə qovuşduracaqdır.

# O GÜN TƏHSİL OCAĞINDA SEVİNC SEVİNCƏ QOVUŞMUŞDU

Şəhər 4 saylı tam orta məktəbinin "İlin ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülməsi haqqındakı şad xəbər rayona çatanda bu təhsil ocağında daha bir təntənəli tədbir — məktəb binasının demək olar yaşıdı, o tarixdən cəmi bir il sonra — 1954-cü ilin dekabrında dünyaya gəlmiş və ali məktəbi bitirdiyi 1977-ci ildən bəri yalnız bu təhsil ocağında dərs demiş Ələkbər Babaxan oğlu Zahidovun 60 illik yubileyi keçirilirdi. O günü burada əsl sevinc yaşanırdı. Bayram bayrama, fərəh fərəhə qarışmışdı. Söz alanlar, yubilyarı təbrik edənlər əvvəl məktəbin uğurlarından, nailiyyətlərindən, yubilyarın bu uğurlardakı, nailiyyətlərdəki rolundan, iştirakından danışır, sonra da Ələkbər müəllimə özlərinin arzularını, diləklərini, ürək sözlərini çatdırırdılar...

Həyatda elə adamlar var ki, yaşından, səviyyəsindən, əqidəsindən asılı olmayaraq hamıya eyni dərəcədə yaxın olmağı, hamının hörmətini, rəğbətini qazanmağı bacarırlar. Ələkbər Zahidov da məhz belə adamlardandır. O, yaşından, səviyyəsindən, əqidəsindən asılı olmayaraq hamıya eyni hörmət və ehtiramla, istiqanlılıqla, doğmalıqla yanaşır, hamı ilə mülayim, mehriban rəftar edir.

Yubiley tədbirini məktəbin direktoru Şəfəq Balaşova aparırdı. Şəfəq müəllimə tədbiri açıb qonaqları təqdim etdikdən sonra yubilyarın həyat və fəaliyyəti barədə danışmaq üçün sözü məktəbin tarix müəllimi, Ələkbər müəllimin keçmiş şagirdi Nicat Axundova verdi. Nicat müəllim Ələkbər Zahidovun qısa tərcümeyi-halı barədə söhbət açaraq göstərdi ki, o, 1954-cü ildə Qaraəhmədli kəndində anadan olub, sonralar ailəsi ilə birlikdə Xolqarabucaq kəndində, Həsənabad qəsəbəsində yaşayıb, 1961-ci ildə o vaxtkı Sovetabad yaşayış məntəqəsindəki səkkizillik məktəbinin 1-ci sinfinə qəbul olunub, 1971-ci ildə indiki Mirqurbanlı orta məktəbini bitirib, sonra istehsalatda çalışıb. 1973-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun coğrafiya fakültəsinə qəbul olunub, 1977-ci ildə oranı bitirərək təyinatla rayonumuza gəlib, Neftçala şəhər 4 saylı səkkizillik məktəbində müəllim kimi fəaliyyətə başlayıb. O vaxtdan da burada müəllim işləyir, balalarımıza coğrafiya fənnindən dərs deyir. Ələkbər müəllim respublikamızın müstəqilliyi uğrunda mübarizədə fəal iştirak etmiş, rayon icra hakimiyyəti başçısı aparatında şöbə müdiri vəzifəsində çalışmış, ilk bələdiyyə seçkilərində Neftçala şəhər bələdiyyəsinin üzvü seçilmişdir.



Nicat müəllim qeyd etdi ki, Ələkbər Zahidov həm də gözəl ailə başçısıdır. Ömür-gün yoldaşı Leyla xanımla birlikdə iki oğul övladı böyüdüb boya-başa çatdırmış, onların hər ikisinə ali təhsil vermişdir. Böyük oğlu Həzrət Zahidli hazırda "Azər-yod" MMC-də hüquqşünas vəzifəsində çalışır. Kiçik oğlu Qoşqar Zahidli isə İslam universitetinin məzunudur.

Nicat müəllim danışdıqca tədbirin keçirildiyi geniş zalın yuxarı tərəfində qoyulmuş iri pərdənin üzərində yubilyarın həyat və fəaliyyətinin ayrı-ayrı anlarını əks etdirən şəkillər, vidiogörüntülər, aldığı mükafatlar, layiq görüldüyü Fəxri fərmanlar... nümayiş etdirilirdi. Bunun ardınca rayonun tanınmış müğənnilərindən biri, bu məktəbin məzunu Mahmud Mahmudov lirik mahnılar oxudu.

Ələkbər müəllimin 60 illik yubileyinə çoxlu qonaq gəlməklə yanaşı xeyli məktub və teleqram da göndərilmişdi. Aparıcı tədbir iştirakçılarına bu barədə məlumat verərək görkəmli ədəbiyyətşünas alim, filologiya elmləri doktoru, professor, Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının akademiki, rayon ağsaqqallar şurasının sədri Hacı İmamverdi Əbilovun, uzun illər rayonun təhsil şöbəsinə rəhbərlik etmiş, Ələkbər müəllimin keçmiş müəllimi, respublikanın Əməkdar müəllimi Tədbir Mahmudovun, "20 Yanvar Cəmiyyəti" Neftçala rayon şöbəsinin sədri, Prezident təqaüdçüsü, "Azadlıq uğrunda mübariz" Fərman Hüseynovun, rayon dindarları adından Hacı Hüseynağa Sərdarovun, Yeniqışlaq kənd ümumi orta məktəbinin direktoru Ülvi Fərzəliyevin və başqalarının göndərdikləri təbrik məktublarını oxudu, vaxtilə rayon polis şöbəsinin rəisi vəzifəsində çalışmış Akif Süleymanzadənin, Azərbaycan Dəmir Yolu Qapalı Səhmdar Cəmiyyətinin bölmə rəisi, "Kür-Xəzər" Xeyriyyə Cəmiyyətinin birinci vitse-prezidenti Abid Günəşovun, şəhər 1 saylı tam orta məktəbinin direktoru Alim Abdullayevin, rayon mərkəzi xəstəxanası uşaq xəstəlikləri şöbəsinin müdiri Faiq Hüseynovun, dost-tanışlarından Şakir Bəşirovun, Ələkbər Şıxəliyevin və başqalarının yubiley münasibətilə təbrik teleqramları göndərdiklərini bildirdi.

Gələn qonaqlardan Təhsil İşçiləri Həmkarlar İttifaqı rayon komitəsinin sədri Asudə Cəfərovanın, şəhər internat məktəbinin direktoru, bu məktəbin məzunu, Ələkbər müəllimin sevimli şagirdi Aytəkin Mahmudovanın, rayon təhsil şöbəsinin metodisti Əlövsət Rzayevin, Neftçala şəhər 2 saylı tam orta məktəbinin direktoru Xəyalə Əliyevanın, yubilyarın keçmiş iş yoldaşları, hazırda təqaüddə olan Qasım Qasımovun, Səfalı Əkbərovun, hazırkı iş yoldaşları məktəbin keçmiş direktoru Gülnaz Mehdiyevanın, Badisəbah Hüseynovanın, Ramiz Hüseynovun, Qunça Nağıyevanın, orta məktəb yoldaşı Saray Babaşovanın və başqalarının dedikləri səmimi təbrik sözləri yubilyarı və tədbirə toplaşanları duyğulandırdı, kövrəltdi.

Məktəbin şagirdləri oxuduqları şeirlərlə, səmimi ürək sözləri ilə sevimli müəllimlərini təbrik etdilər, ona uzun ömür, can sağlığı arzuladılar.

Tədbirin gedişi boyu yubilyara tez-tez telefon zəngləri də gəlir, onu uzaq yerlərdə yaşayan dostları, tanışları, keçmiş şagird və tələbə yoldaşları da təbrik edirdilər. Onların arasında vaxtilə bu məktəbdə oxumuş, Ələkbər müəllimlə eyni vaxtda rayon icra hakimiyyətində məsul vəzifədə çalışmış hazırda "Ədəbiyyat qəzeti"nin baş redaktor əvəzi vəzifəsini daşıyan əməkdar mədəniyyət işçisi Hacı Azər Turan, keçmiş sinif yoldaşı, hazırda Bakıda məsul vəzifədə çalışan Atalı Əsədov, qardaşı oğlu, Qobustan rayon polis şöbəsinin müstəntiqi Vüsal Zahidli və başqaları var idi.

Tədbirin gedişini videokamerasının yaddaşına köçürən məktəbin məzunu, Ələkbər müəllimin keçmiş şagirdi Hüseyn Hüseynov kamerasını kənara qoyaraq özünün səmimi sözlərini də dedi, bu məktəbdə oxuduqları illərdə Ələkbər Zahidovun müəllimlikdən əlavə onlar üçün həm də yaxın dost, yoldaş olduğunu, Vətənə, torpağa məhəbbət hissləri aşıladığını söylədi.

Sonda söz yubilyarın özünə verildi. Ələkbər müəllim belə gözəl tədbir təşkil edib keçirdiklərinə görə rayonun rəhbərliyinə, rayon təhsil şöbəsinə, məktəbin rəhbərliyinə, kollektivinə, bu işdə zəhməti və xidməti olan bütün adamlara özünün səmimi təşəkkürlərini çatdırdı, onlara minnətdarlığını bildirdi. Ələkbər müəllim çıxışını Əşrəf Veysəllinin aşağıdakı misraları ilə bitirdi:

**Altmışım arxada qalıb, haçandır,**
**Haçandır gözümün yuxusu yoxdur.**
**Yaşın çətinliyi altmışacandır,**
**Altmışdan o yana qorxusu yoxdur...**

Sonda tədbir iştirakçıları çoxlu kollektiv şəkillər çəkdirdilər, bu gözəl tədbiri fotoşəkillərdə də əbədiləşdirdilər.

**Təranə Mehdiyeva,**
**şəhər 4 saylı tam orta məktəbinin müəllimi**

# Şirin xatirə tək qaldı yaddaşlarda

Dekabrın 31-i köhnə ilin son günüdür. Soydaşlarımızı birliyə səsləyən Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni ilin qarşılanması bu günə təsadüf etdiyindən onlar həmişə əziz tutulur, bütün xalqımız kimi neftçalalılar tərəfindən də həmişə böyük sevgi və coşqu ilə qeyd edilir. Bu həm də ilin son tədbiridir. İl hər yerdə məhz bu tədbirlərlə yekunlaşaraq tarixə dönür.



Dünya Azərbaycanlılarının Həmrəylik Gününə və Yeni ilə həsr olunmuş bu ilki tədbir də unudulmazdır. Əvvəlcə rayon rəhbəri hörmətli İsmayıl Vəliyev başda olmaqla tədbir iştirakçıları Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gələrək buraya tər çiçəklər düzdülər, Ulu Öndərə özlərinin dərin hörmət və ehtiramlarını bildirdilər.

Tədbirin keçirildiyi ünvan — Milli Qəhrəman Xanoğlan Məmmədovun adını daşıyan şəhər mədəniyyət və incəsənət sarayı çoxlu sayda insanı qoynuna almışdı. Hamının çöhrəsində sonsuz sevinc vardı. Niyə də olmayaydı?! Yola salınan il rayonumuz üçün uğurlu olmuşdu. Neçə-neçə yeni obyekt istifadəyə verilmiş, Neftçalanın siması xeyli dərəcədə dəyişərək müasirləşmişdi. Ən başlıcası bu obyektlərin açılışını möhtərəm Prezidentimiz İlham Əliyev özü etmişdi. Bunlar isə unudulmazdır. Rayonumuzun qızıl hərflərlə yazılmış tarixidir, yaddaşlardan silinməyəcək xatirədir.

Həmişə olduğu kimi tədbiri bu dəfə də neftçalalıların yaxşı tanıdığı Pərvin Həbibov aparırdı. Dünya Azərbaycanlılarının Həmrəylik Gününün yaranma tarixindən, həyata vəsiqə almasından söz açan aparıcı Yeni ilin gəlişini də ürəkdən alqışladı, şərəfinə xoş sözlər söylədi. Tamaşaçılar 2014-cü ilin uğurlarını özündə əks etdirən videoçarxı böyük maraqla izlədilər, həm respublikamızdakı, həm də rayonumuzdakı yüksək inkişafın, tərəqqinin bir daha canlı şahidi oldular.



Belə xoş gündə əlamətdar bayramlar münasibətilə rayon rəhbərinin səmimi təbrikini dinləmək neftçalalıların sevincinin üstünə yeni sevinc gətirdi. Onlar ürəkdən gələn bu səmimi təbrikə özlərinin alqışları ilə cavab verdilər.



Yeni ilin atributlarından olan Qar qızın səhnəyə daxil olması salondakı hərarəti bir daha artırdı. Qar qızın sözlərindən aydın oldu ki, dünyanı dolaşan Şaxta baba artıq Neftçaladadır, bir neçə dəqiqədən sonra tədbirə qatılacaq. Nümayiş etdirilən videoçarx bunu bir daha təsdiqlədi. Elləri, obaları dolaşa-dolaşa rayonumuza qədəm qoyan Şaxta baba gördüklərinə inanmadı. Neftçala doğrudan da 2013-cü ilin Nefttçalası deyildi, tanınmaz dərəcədə dəyişərək gözəlləşmişdi. Bu dəyişmə, yeniləşmə Şaxta babanı — Eldar Quliyevi və Qar qızı — Mədinə Məmmədovanı da çox sevindirdi. Yeni il tədbirində onlar bunu xüsusi vurğuladılar, quran, yaradan əllərə alqış dedilər.

Əziz bayramlara həsr olunmuş bu gözəl tədbiri nəğməsiz, musiqisiz təsəvvür etmək mümkün deyildi. Tanınmış müğənnilər Mahmud Mahmudovun, Ağabəy Manafovun, Sara Hüseynovanın, Süleyman Ruqiyevin, Rövşən Mehdiyevin oxuduqları qəlbəyatan mahnıları dinləmək, təcrübəli mədəniyyət işçisi Çingiz Məmmədovun məktəblilərlə birlikdə hazırladığı "Dağlar gözəli" rəqsinə tamaşa etmək hamı üçün xoş oldu.

Beləcə bir ili də yola saldıq. Rayon mədəniyyət və turizm şöbəsinin hazırladığı bu gözəl tədbir şirin bir xatirə kimi qaldı yaddaşlarda.

**Murad ƏHMƏDOV**

# Aktyorlarımızın ilk qalibiyyət diplomu

Rayon mədəniyyət və turizm şöbəsi rəhbərliyinin böyük səyi ilə cəlb edilən teatr həvəskarlarından təşkil olunmuş istedadlı bir qrup uğurlu yola çığır açaraq bu günlərdə rayonumuzu layiqincə təmsil etdi. Yalnız sövet dönəmində fəaliyyət göstərmiş, onun süqutundan sonra isə bu sahənin istedadlarının pərən-pərən düşdüyü teatr səhnəmiz beləcə, bir qrup həvəskar aktyorlarımız tərəfindən yenidən öz dirçəlişinə imza atdı. Uzun illər yalnız əlamətdar və tarixi günlərlə bağlı təşkil olunan tədbirlərdə kiçik səhnəciklərlə rayonun teatrsevərlərini sevindirən özfəaliyyət kollektivimiz bu ilin sentyabr-oktyabr aylarında respublikamızda 14 rayon üzrə həyata keçirilən regionlar üzrə Xalq Teatrlarının baxış müsabiqəsində Sabirabad və Cəlilabad rayonları da daxil olmaqla 3 qalibdən biri olmuşdur.





Hamımızın bildiyi, dəfələrlə televiziya ekranlarından sevə-sevə izlədiyimiz, böyük aktyorların iştirak etdiyi "Yarımştat" tamaşası əsasında hazırlanan "Neftçalavari yarımştat" rayonumuzun teatrsevərlərinin qəlbinə yol tapmaqla bərabər, bu sahənin mütəxəssislərinin diqqətini də cəlb etməyi bacardı. Rayonumuza xas keyfiyyətləri özlərinə məxsus məharətlə, obrazlı şəkildə önə çıxarmağı bacaran özfəaliyyət qrupunun istedadlı üzvləri uğurla çıxış edərək münsiflərin rəğbətini qazandı. Rayon tədbirlərindəki kiçik səhnəciklərdən tanıdığımız bu istedad sahibləri gözəl aktyorluq qabiliyyətinə malik Əfsər Hüseynli, apardığı tədbirlərdə monoton səsi ilə tamaşaçını özünə cəlb edən Zaur Manafov, xalq rəqslərinin mahir ifaçısı Çingiz Məmmədov, yaratdığı Məşədi İbad obrazı ilə yadda qalan Zaur Bağırov, səhnəmizdə Əlif Hacıyev kimi qəhrəmanı böyük ustalıqla canlandıran Şərif Aslanov bu tamaşada bir araya gələrək, öz qabiliyyətlərini bir daha nümayiş etdirməyi bacardılar.

Teatr sahəsində çalışan mütəxəssislər tərəfindən bəyənilərək onların qarşısında uğurla çıxış edən özfəaliyyət qrupumuz beləcə 14 rayon arasında seçilərək Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzi tərəfindən təşəkkür və diploma layiq görüldü.

Azərbaycanın Milli Qəhrəmanı Xanoğlan Məmmədov adına şəhər mədəniyyət və incəsənət sarayında bu münasibətlə keçirilən tədbirdə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin şöbə müdiri Rafiq Quliyev diplomu rayon mədəniyyət və turizm şöbəsinin müdiri Elmira xanım Kazımovaya təqdim edərək 2015-ci ilin ilk aylarında qaliblər arasında "Xalq teatrı" adı uğrunda birincilik üzrə keçiriləcək yarışda onlara uğurlar dilədi. Həmin mərkəzin teatr bölməsinin metodistləri Binnət Quliyev və İlahə Qurbanova da çıxış edərək rayonumuzun təmsilçiləri olan həvəskar teatr qrupumuza müvəffəqiyyətlər arzuladılar.

Biz də öz növbəmizdə, rayonumuzun layiqli təmsilçilərinə bu birincilik yarışında qalibiyyət arzulayırıq. İnanırıq ki, onlar qarşıdakı çətin sınaqlardan uğurla çıxaraq "Neftçala xalq teatrı" adını qazanacaqlar.

**A.MİKAYILOV**

# DÖVLƏT SIĞORTA ŞİRKƏTİ – ETİBARLI TƏMİNATÇI

2014-cü ilin oktyabr ayında AZƏRSIĞORTA Dövlət Sığorta Şirkətində ilin 9 ayında görülən işlərin yekunu və qarşıda duran vəzifələrlə bağlı geniş tərkibli iclas keçirildi. Şirkətin sədri cənab M.Məmmədov "SIĞORTA FƏALİYYƏTİ HAQQINDA", "İCBARİ SIĞORTALAR HAQQINDA" Azərbaycan Respublikası Qanunlarının tələblərindən irəli gələn vəzifələrə aydınlıq gətirməklə yanaşı həm də qeyd etdi ki, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sığortanın bütün növləri üzrə ötən ilə nisbətən daha çox sığorta tədiyyəsi toplanılmışdır. Sevinirik ki, uğurların əldə olunmasında kollektivimizin də zəhmət payı az deyildir. Filialımızda cari ilin proqnoz tapşırıqlarının artıqlaması ilə yerinə yetirilməsi birgə səyin bəhrəsidir.

Digər rayon filialları ilə müqayisədə ən gənc kadrlar məhz bizim filialda çalışır və onlar iş bacarığına görə seçilərək xüsusi diplomlarla və sertifikatlarla təltif olunmuşlar. Həmin şəxslərin vəzifələrini layiqincə yerinə yetirmələrinin nəticəsidir ki, Dövlət Sıgorta Şirkətinin Neftçala filialı tarixində ən böyük sıgorta tədiyəsini məhz bu il toplamışdır. Buna görə filialın aparıcı mütəxəssisləri olan Vüsal Rafael oğlu Kərimov və Cəmil Arif oğlu Qardaşov apardıqları düzgün təbliğat, izahat işlərinə görə şirkət tərəfindən təşəkkürnamə ilə təltif olunmuslar.

Apardığımız düzgün təbliğat, məqsədyönlü işlər öz bəhrəsini verir. Məhz bunun sayəsində vətəndaşlarımız bizə - AZƏRSIĞORTA Dövlət Sığorta Şirkətinə üz tutaraq avtonəqliyyatlarını, həyatlarını, əmlaklarını, təsərrüfatlarını sığorta etdirirlər. Əməkdaşlarımız rayonumuzun ucqar kəndlərinə belə gedərək vətəndaşlarla daim ünsiyyətdə olur, onlara bu sahədə maraqlı məlumatlar verirlər. Digər sığorta şirkətlərindən fərqli olaraq biz hər hansı bir nəqliyyat hadisəsi və sığorta ilə bağlı başqa hadisələr baş verdiyi zaman daha operativ olaraq hadisələri aktlaşdırırıq. Məhz bunun nəticəsidir ki, filialımız rayonumuzda ən etibarlı təminatçı, dürüst, operativ sığorta şirkəti kimi sayılır və seçilir.

Biz bütün il boyu sığortanın müxtəlif növləri haqqında geniş məlumat verərək onun mahiyyətini, cəmiyyətimizdəki rolunu izah etməyə çalışırıq. Bu gün isə sığortanın əsas növlərindən biri olan DAŞINMAZ ƏMLAKIN İCBARİ SIĞORTASI haqqında danışmaq istəyirik. Günümüzdə bəşər övladı təbiətə o qədər təsir etmişdir ki, bu da istər-istəməz iqlim dəyişikliklərinə, təbii fəlakətlərin çoxalmasına səbəb olmuşdur. İnsanlar bu təbii fəlakətlərin böyük bir qisminin qarşısında acizdirlər. Onun əmələ gətirdiyi böyük zərərləri kompensasiya etmək çox böyük xərc tələb edir. Belə olan halda insanlar həyatlarını, əmlaklarını sığorta etdirməklə gələcəkləri üçün böyük güzəştlər əldə edirlər. Çox uzağa getməyək. 2010-cü ildə Kür çayının daşması nəticəsində minlərlə ev su altında qaldı. Şimal bölgəsində baş vermiş güclü zəlzələ nəticəsində vətəndaşımıza məxsus xeyli sayda evlər və digər şəxsi əmlaklar qəzalı vəzziyyətə düşdü, dağıldı. Əlbəttə, dövlətimiz vətəndaşları yalqız qoymadı, onların yanında oldu. Yeni müasir evlər tikilərək vətəndaşlarımıza təhvil verildı. Həmin təbii fəlakətlər zamanı sığortası olan şəxslər bizlərdən də yardım ala bildilər. Dövlət Sığorta Şirkəti olaraq hər zaman vətəndaşlarımızın yanında olduq. Ona görə İCBARİ SIĞORTALAR HAQQINDA Azərbaycan Respublikasının 2011-ci il 24 iyun tarixli qanununa əsasən hüquqi və fiziki şəxslərə məxsus DAŞINMAZ ƏMLAK (yaşayış evləri, mənzillər, tikililər) icbari qaydada sığorta olunmalıdır. Daşınmaz əmlakın icbari sığortası - yanğın, zəlzələ, qasırğa, sel, daşqın, torpaq sürüşməsi kimi hadisələrin baş verməsi nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı vətəndaşlara dəyən zərərin ödənilməsinə təminat verir.

Neftçala rayonu üzrə daşınmaz əmlakın icbari sığortası üzrə sığorta haqqı illik 30 manatdır. 30 manat ödəməklə 1 il müddətində yuxarıda qeyd olunan hər hansı bədbəxt hadisə baş verərsə Dövlət Sığorta Şirkəti sizlərə maksimum 15 000 manat sığorta məbləği ödəməyə təminat verir. Bunun üçün xüsusi ekspert qrupu təşkil edilir. Ekspert qrupu dəymiş zərəri hesabladıqdan sonra ödənilesi məbləğ təyin olunur.

Bir xüsusi məqamı da diqqətə çatdırmaq istəyirəm. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 fevral 2012-ci il tarixli qərarına əsasən "ÜNVANLI DÖVLƏT SOSİAL YARDIMI ALMAQ HÜQUQUNA MALİK OLAN AZTƏMİNATLI AİLƏLƏRƏ MƏXSUS YAŞAYIŞ EVLƏRİNİN VƏ MƏNZİLLƏRİNİN İCBARİ SIĞORTASI" dövlət büdcəsinin vəsaitləri hesabına ödənilir. Qərar qüvvəyə mindiyi tarixdən Dövlət Sığorta Şirkətinin bütün rayon filialları aztəminatlı ailələrin daşınmaz əmlakını sığortalayaraq onlara əlavə təminatlar verir. Eləcə də Neftçala filialı hər il 1000-dən çox vətəndaşın daşınmaz əmlaklarını sığortalayır.

Biz vətəndaşlarımız arasında artıq etibarlı tərəfdaş kimi tanınırıq. Bu nailiyyətlərimizdə, uğurlarımızda rayon rəhbərliyinin xüsusi rolu vardır. Bunun üçün biz cənab İsmayıl Vəliyev başda olmaqla rayonun bütün idarə, muəssisə və təşkilatlarına, inzibati ərazi nümayəndəliklərinə dərin minnətdarlıqlarımızı bildiririk.



**Vüsal MANAFOV,**
**Dövlət Sığorta Şirkəti Neftçala filialının direktoru**

# Unudulmaz tədbirlər

Yeniqışlaq kənd ümumi orta məktəbi rayon mərkəzindən xeyli uzaqda yerləşsə də burada çalışan müəllimlər öz peşələrini ürəkdən sevən, yenilik, müasirlik ruhu ilə yaşayan insanlardır. Təhsil ocağında tədrisin keyfiyyəti ilə yanaşı şagirdlərin layiqli vətəndaşlar kimi yetişməsinə də ciddi diqqət yetirilir. Məktəbdə keçirilən müxtəlif məzmunlu tədbirlər mühüm əhəmiyyət kəsb edir. Tariximizə, mədəniyyətimizə, milli-mənəvi dəyərlərimizə, el bayramlarına, əlamətdar günlərə həsr olunan bu tədbirlər şagirdlərin asudə vaxtlarının səmərəli təşkilinə xidmət etməklə yanaşı, həm də onların bilik və dünyagörüşlərinin genişlənməsinə öz müsbət təsirini göstərir. Təsadüfi deyildir ki, Qanlı Yanvar, Xocalı faciəsi, Respublika Günü, Qurtuluş Günü ilə bağlı keçirilən tədbirlər şagirdlərin yaddaşında xoş xatirələr kimi qalıb. Ulu Öndərin doğum və anım günləri onlar üçün xüsusilə unudulmazdır. Şagirdlər əziz Novruzu, digər el bayramlarını, əlamətdar günləri də həmişə geniş hazırlıqla qarşılayır, yaddaqalan tədbirlərlə qeyd edirlər.



Son illər rayonumuzun, xüsusilə Neftçala şəhərinin tanınmaz dərəcədə dəyişərək müasirləşməsi, burada yeni-yeni obyektlərin, istirahət mərkəzlərinin istifadəyə verilməsi bütün sakinlər kimi məktəbliləri də ürəkdən sevindirmiş, onların da qəlbində xoş duyğular oyatmışdır. Tarix müəllimi Tarıverdi Hüseynovun rəhbərliyi altında rayon mərkəzinə təşkil olunan ekskursiyanın məktəblilər tərəfindən böyük maraqla qarşılanması da bununla bağlı idi.

Əvvəlcə şagirdlər rayon tarix-diyarşünaslıq muzeyində olmuşlar. Muzeyin eksponatları ilə maraqla tanış olan məktəblilər rayonumuzun uzaq-yaxın tarixi barədə ətraflı məlumatlar əldə etmiş, muzey bələdçilərinə çoxlu sayda suallar vermişlər.



Ekskursiyanı davam etdirən məktəblilər Heydər Əliyev Mərkəzində dahi rəhbərin, bu dahi insanın yolunu uğurla davam etdirən Prezident İlham Əliyevin Neftçalanın sosial-iqtisadi və mədəni inkişafına göstərdikləri diqqət və qayğını əyani nümunələr əsasında maraqla izləmiş, buradakı eksponatlarla yaxından tanış olmuşlar. Sonra şagirdlər mərkəzdəki intellektual oyunlar, xalq çalğı alətləri, rəqs, xalçaçılıq və toxuculuq zallarında olmuş, kompüter oyunlarında, milli musiqi alətlərində və güllə atıcılığında bacarıqlarını nümayiş etdirmişlər. Kino zalında baxdıqları "Çiçəklənən Neftçala" və "Bu şəhərdə" videoçarxları da şagirdlərdə zəngin təəssürat yaratmışdır.

Ekskursiya Bayraq meydanında başa çatmışdır. Şagirdlər əzəmətlə dalğalanan üçrəngli bayrağımızı qürur hissilə seyr etmiş, Kür sahilindəki bulvarda istirahət etmişlər.

Məktəblilər ekskursiyadan zəngin təəssüratlarla qayıtmışlar. Çəkilən xatirə şəkilləri unudulmaz gündən ən yaxşı xatirələr kimi qalmışdır.

**Fərhad AĞAYEV**

# "AQRARKREDİT" SƏHMDAR KREDİT TƏŞKİLATININ ELANI

## "Aqrarkredit" Səhmdar Kredit Təşkilatından kredit almış, kreditin təminatı kimi girov qoyulmuş, krediti qaytara bilmədiyinə görə məhkəmə qətnamələrinə əsasən kredit təşkilatının mülkiyyətinə keçirilmiş aşağıdakı yaşayış evləri və torpaq sahələri satılır:

1.Neftçala rayonu Aşağı Surra kəndində yerləşən ümumi sahəsi 332,1 kv.m, yaşayış sahəsi 100,1 kv.m, həyətyanı sahəsində 22,8 kv.m. təsərrüfat tikilisi, metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 2 mərtəbəli 4 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Əhmədov Mirkazım Yusif oğlu olmuşdur)

2.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən ümumi sahəsi 225,2 kv.m, yaşayış sahəsi 64,0 kv.m, həyətyanı sahəsində 26,0 kv.m., 51,0 kv.m. və 63,6 kv.m. təsərrüfat tikilisi, metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 2 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Həşimov Əflatun Yalov oğlu olmuşdur)

3.Neftçala rayonu Qədimkənd kəndində yerləşən ümumi sahəsi 89,5 kv.m, yaşayış sahəsi 42,5 kv.m, həyətyanı sahəsində 0,01 kv.m. təsərrüfat tikilisi 62,2 kv.m. metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 2 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Gözəlov İbrahim Səmid oğlu olmuşdur)

4.Neftçala rayonu Aşağı Surra kəndində yerləşən ümumi sahəsi 93,4 kv.m, yaşayış sahəsi 50,2 kv.m, həyətyanı sahəsində 6,8 kv.m. təsərrüfat tikilisi, metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 2 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Həsənov Mirzəağa Məmməd oğlu olmuşdur)

5.Neftçala rayonu Tatarməhlə kəndində yerləşən ümumi sahəsi 239,8 kv.m, yaşayış sahəsi 120,9 kv.m, həyətyanı sahəsində 89,6 kv.m., 108,0 kv.m. və 14,6 kv.m. təsərrüfat tikilisi, metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 2 mərtəbəli 4 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Nəzirov Fəxrəddin Eynulla oğlu olmuşdur)

6.Neftçala rayonu Kürqarabucaq kəndində yerləşən ümumi sahəsi 227,3 kv.m, yaşayış sahəsi 66,1 kv.m, həyətyanı sahəsində 75,4 kv.m. təsərrüfat tikilisi, metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 2 mərtəbəli 4 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi İsayev Mazan Məlik oğlu olmuşdur)

7.Neftçala rayonu Kürqarabucaq kəndində yerləşən ümumi sahəsi 170,2 kv.m, yaşayış sahəsi 86,8 kv.m, həyətyanı sahəsində 53,5 kv.m. təsərrüfat tikilisi, 27,2 kv.m. talvar, 20,0 kv.m. qaraj, metal darvazası olan bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Məmmədova Lumu Qüdrət qızı olmuşdur)

8.Neftçala rayonu Aşağı Qaramanlı kəndində yerləşən ümumi sahəsi 129,3 kv.m, yaşayış sahəsi 63,9 kv.m, metal darvazası olan, bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 4 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Hadıyeva Zəhra Səmədağa qızı olmuşdur)

9.Neftçala rayonu Cəngən kəndində yerləşən ümumi sahəsi 67,2 kv.m, yaşayış sahəsi 35,7 kv.m, metal darvazası olan, bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 2 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Cəfərov Nəsir Adbala oğlu olmuşdur)

10.Neftçala rayonu Ərəbqardaşbəyli kəndində yerləşən ümumi sahəsi 117,2 kv.m, yaşayış sahəsi 72,9 kv.m, təsərrüfat tikilisi 51,8 kv.m, talvar 7,5 kv.m, metal darvazası olan, bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Rzayev Amin Adil oğlu olmuşdur)

11.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən ümumi sahəsi 147,3 kv.m, yaşayış sahəsi 78,8 kv.m, təsərrüfat tikilisi 143,38 kv.m, metal darvazası olan, bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 1 mərtəbəli 4 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Həsənov Bilal Cahangir oğlu olmuşdur)

12.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən ümumi sahəsi 287,3 kv.m, yaşayış sahəsi 81,4 kv.m, təsərrüfat tikilisi 143,7 kv.m, metal darvazası olan, bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 2 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Qasımov Nağıbala Musa oğlu olmuşdur)

13.Neftçala rayonu Birinci Qaralı kəndində yerləşən ümumi sahəsi 297,3 kv.m, yaşayış sahəsi 76,8 kv.m, təsərrüfat tikilisi 179,6 kv.m, talvar 145,3 kv.m, metal darvazası olan, bünövrəsi beton olmaqla mişar daşından tikilmiş orta təmirli 2 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Qafarov Abdulhüseyn Xeyrulla oğlu olmuşdur)

14.Neftçala rayonu Tatarməhlə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 7,92 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Salmanov Elman Sənan oğlu olmuşdur)

15.Neftçala rayonu Boyat kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 33 olan 6,29 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Rüfət İsmayıl oğlu olmuşdur)

16.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 3,93 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Hüseynov Səttar Zülfüqar oğlu olmuşdur)

17.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 2,62 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Daşqın Akif oğlu olmuşdur)

18.Neftçala rayonu Boyat kəndində yerləşən 2-ci keyfiyyət qrupuna aid, bonitet balı 65 olan 4,96 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Səfərov İmran Abutalıb oğlu olmuşdur)

19.Neftçala rayonu Boyat kəndində yerləşən 2-ci keyfiyyət qrupuna aid, bonitet balı 65 olan 7,48 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abdullayev Sarif Məmmədkərim oğlu olmuşdur)

20.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 50 olan 41,63 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əliyev Tahir Musa oğlu olmuşdur)

21.Neftçala rayonu Yeniqışlaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 47 olan 4,0 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Axundov Ərəstun Rəsul oğlu olmuşdur)

22.Neftçala rayonu Haqverdili kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 47 olan 7,0 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əhmədov İlham Əzizağa oğlu olmuşdur)

23.Neftçala rayonu Yeniqışlaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 47 olan 5,6 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əhmədov Əzizağa Əli oğlu olmuşdur)

24.Neftçala rayonu Yeniqışlaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 47 olan 8,4 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Axundov Hilal Ərəstun oğlu olmuşdur)

25.Neftçala rayonu Haqverdili kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 44 olan 5,96 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əhmədov Elçin Əzizağa oğlu olmuşdur)

26.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 38 olan 7,49 ha torpaq sahəsi(əmlakın əvvəlki sahibi Babayeva Gülüm Məsmalı qızı olmuşdur)

27.Neftçala rayonu Tatarməhlə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 15,85 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Nəzirov Eynulla Xeyrulla oğlu olmuşdur)

28.Neftçala rayonu Tatarməhlə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 9,91 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Nəzirov Zəbulla Eynulla oğlu olmuşdur)

29.Neftçala rayonu Qaçaqkənd kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 6,36 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Həsənov Bilal Əvəz oğlu olmuşdur)

30.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 45 olan 28,91 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əliyev İxtiyar Alı oğlu olmuşdur)

31.Neftçala rayonu Boyat kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 33 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Şahin Zakir oğlu olmuşdur)

32.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 3,93 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasova Şura Əvəz qızı olmuşdur)

33.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 38 olan 5,11 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Ələkbərov Ziyafət Kərim oğlu olmuşdur)

34.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 28 olan 9,25 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Məmmədov Ədalət Paşa oğlu olmuşdur)

35.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 47 olan 10,34 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Quliyev Şakir Rəşid oğlu olmuşdur)

36.Neftçala rayonu Seyidlər kəndində yerləşən 4-cü keyfiyyət qrupuna aid, bonitet balı 36 olan 7,88 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Yusifova Laləzar Qardaşəli qızı olmuşdur)

37.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 7,34 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Hacıyev Eynulla İsmayıl oğlu olmuşdur)

38.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 6,55 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Əliyeva Təyibə Qarakişi qızı olmuşdur)

39.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 6,55 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İbrahimov Rahim İbrahim oğlu olmuşdur)

40.Neftçala rayonu Tatarməhlə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 58 olan 7,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Vəliyev Aləddin Qüdrət oğlu olmuşdur)

41.Neftçala rayonu Xolqarabucaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 54 olan 4,33 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Həşimov Əflatun Yalov oğlu olmuşdur)

42.Neftçala rayonu Xəzər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 50 olan 31,23 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abdullayev Elton Qulam oğlu olmuşdur)

43.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 7,97 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Suleymanov Fəxrəddin Əlihüseyn oğlu olmuşdur)

44.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 7,90 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Şahlar Zakir oğlu olmuşdur)

45.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 9,17 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Ağayev Şirvan Qurban oğlu olmuşdur)

46.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İsmayılov Kamil Mürşüd oğlu olmuşdur)

47.Neftçala rayonu Aşağı Surra kəndində yerləşən 2-ci keyfiyyət qrupuna aid, bonitet balı 65 olan 3,93 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Həsənağa Hüseynağa oğlu olmuşdur)

48.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Məmmədov Rahim Ağamməd oğlu olmuşdur)

49.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 6,29 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Nüsrət Əvəz oğlu olmuşdur)

50.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 53 olan 5,24 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Fizuli Gülağa oğlu olmuşdur)

51.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 7,87 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Mübariz Ağasəf oğlu olmuşdur)

*(Ardı 8-ci səhifədə)*

# Görkəmli ədəbiyyatşünas alim, professor Nizaməddin Şəmsizadənin "Müdriklər bunları deməyib..." kitabı haqqında düşünərkən

Bu yaxınlarda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən, böyük simalarından biri — xalq yazıçısı İlyas Əfəndiyevin anadan olmasının 100 illik yubileyi münasibətilə rayonumuzda keçirilən təntənəli tədbir yaddaşımızda şirin xatirə kimi qaldı. Həmin tədbirdən xeyli vaxt ötməsinə, bu barədə qəzetimizdə geniş yazı dərc edərək oxuculara ətraflı məlumat verməyimizə baxmayaraq yenə o unudulmaz günün təsiri altındayıq, yenə o xoş gündən aldığımız təəssüratları kimlərləsə bölüşməyə ehtiyac duyuruq.

Tədbiri maraqlı, məzmunlu edən mühüm amillərdən biri də respublikamızın paytaxtından gəlmiş qonaqların sadəlikləri, səmimiyyətləri, onların etdikləri çıxışların, apardıqları söhbətlərin dəyəri, səviyyəsi idi. İstər Azərbaycan Televiziyasının "Mədəniyyət" kanalında apardığı maraqlı, məzmunlu verilişlərdən bizə yaxşı tanış olan sənətşünaslıq doktoru, professor İlham Rəhimlinin, istər sadəliyi və səmimiliyi ilə ilk tanışlıqdan hamını ələ almağı bacaran Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, Əməkdar müəllim, beynəlxalq "Rəsul Rza" və " Qızıl qələm" mükafatları laureatı, tanınmış şair Oqtay Rzanın, istər yubilyarın nəvəsi Günay xanım Əfəndiyevanın, istər yubiley tədbirində iştirak etmək üçün Bakıdan gəlmiş başqa qonaqların dedikləri, danışdıqları hamıda böyük maraq doğurdu, qəlblərə yol tapdı. Həmin yubiley tədbirində diqqəti ən çox cəlb edən, maraq doğuran qonaqlardan biri də barəsində danışmaq istədiyimiz respublika Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Nizaməddin Şəmsizadə idi.

İgidin adını eşit, üzünü görmə deyiblər. Amma əslində gərək igidin adını da eşidəsən, özünü də görəsən, özü ilə də görüşəsən, söhbətləşəsən, təmasda olasan. Yoxsa onu hərtərəfli tanıya, onun haqqında tam təsəvvürə malik ola bilməzsən. Nizaməddin müəllimi dinlədikcə, dediklərinə, danışdıqlarına qulaq asdıqca biz bu barədə düşünür, bu böyük, görkəmli, böyük, görkəmli olduğu qədər də sadə və səmimi alimi, mütəfəkkiri, ziyalını,.. dostu, yoldaşı indiyə qədər yaxından tanımadığımıza təəssüf edirdik...

Çoxları kimi elə biz də indiyə qədər Nizaməddin müəllim haqqında az şey bilirdik. Uzağı onu bilirdik ki, Nizaməddin Şəmsizadə görkəmli ədəbiyyatşünas, azərbaycanşünas alimdir, tənqidçi və nəzəriyyəçidir, filologiya elmləri doktorudur, professordur, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatıdır. Bəs bu görkəmli alimin, nəzəriyyəçinin, professorun... daxili aləmi, iç dünyası, mənəviyyatı, qəlbi, ruhu barədə necə, bir şey bilirdikmi? Bunları bilmək üçün yaradıcı adamın ya gərək yazdıqlarını tamam-kamal oxuyasan, yaradıcılığı ilə hərtərəfli tanış olasan, ya da özünü dinləyəsən, qəlbinin, ruhunun səsinə qulaq asasan, mənəviyyatının necəliyini öz dilindən eşidəsən. Nizaməddin müəllimin bizimlə apardığı o qısa söhbətlərdən onun ruhuna, qəlbinə, mənəviyyatına az-çox bələd olduq. Amma geniş və zəngin yaradıcılığına o qədər də bələd deyildik. Bu barədə söz düşəndə Nizaməddin müəllim gülümsər halda əlindəki cibə sığışa biləcək qədər kiçik olan kitabçanı bizə bağışladı. Dedi mənim ən "dəyərli yaradıcılığım" elə budur, ruhumu, qəlbimi, mənəviyyatımı,.. şəxsiyyətimi bu kiçik kitabçadan daha yaxşı tuta, daha rahat duya bilərsiniz. Cild-cild dəyərli kitablar yazmış geniş elmi fəaliyyətə malik bir alimin belə kiçik kitabça çap etdirməsi, onu özü ilə gəzdirməsi, özünün vizit vərəqi, pasportu kimi dost-tanışa təqdim etməsi bizə qəribə gəldi. O kitabçanı alıb qovluğumuza qoyduq və alimlə vidalaşdıq. Sonradan o kitabçanı vərəqləyib oxuduqda gördük ki, Nizaməddin müəllim düz deyirmiş, bu kitabça doğrudan da onun pasportu, vizit vərəqi imiş. Bir də ona inandıq, əmin olduq ki, hər hansı bir kitabın həqiqi qiyməti, dəyəri onun həcmindən, vərəqlərinin sayından çox mənasında, məzmununda, məfkurə tutumunda olur. Nizaməddin müəllimin adi cibə sığışa biləcək bu əl boyda kitabçasının mənası, məzmunu, məfkurə tutumu bəlkə cildlərlə kitablara sığışa bilməz. Nizaməddin müəllim elə bil çox geniş, əhatəli, ağır, dəyərli fikirlərini sıxaraq, sıxışdıraraq vəzndən yüngül, qiymətdən ağır lələ, cəvahirata çevirib, onları kiçik bir kitabçaya yerləşdirib, insanlara ərməğan edib...




Nizaməddin Şəmsizadənin bizə hədiyyə etdiyi "Müdriklər bunları deməyib..." (Bakı - "Proqres" - 2014) adlı bu böyük dəyərə malik kitabı başdan-başa müdriklərin dediklərindən də qiymətli fikirlərdən, düşüncələrdən, aforizmlərdən ibarətdir. Müəllif bu kitabı üç qız övladından sonra dünyaya göz açmış yeganə oğluna xitabən qələmə alıb və onu həyata yeni qədəm qoyan gənclərə, gələcək nəsillərə ünvanlayıb. Kitabın əvvəlində oxuyuruq: "Bu kitab əslində, mənim sənə həm nəsihətim, həm də vəsiyyətimdir. Yazdığım fikirlər həyatda başıma gələnlərin, aldığım dərslərin, müşahidələrimin müxtəsər formulə olunmuş nəticəsidir. Mayası səmimiyyətdən tutulub. Bu miniatür, və əlbəttə, çox məziunlu kitabı həmişə cibində gəzdir. Onda həmişə mənimlə olacaqsan. Mən bu kitabla sənə qəlbimi və zəkamı birlikdə yadigar qoyuram. Azərbaycanda atalar sözü, zərb-məsəllər, kəlamlar çoxdur. Çünki biz müdrik xalq, böyük millətik. Amma əlində tutduğun kitabda yazılanların heç birini müdriklər deməyib. Onları da mən demişəm..."

Nizaməddin Şəmsizadə böyük alim, böyük mütəfəkkir, böyük ziyalı olmaqla yanaşı həm də böyük türkçü, böyük azərbaycançıdır. Bunu "Müdriklər bunları deməyib..." kitabında da xüsusi vurğulayır, oğluna xitabən qürurla deyir: "Sənin atan böyük türkçü və azərbaycançıdır. Bunun üçün təkcə "Azərbaycançılıq" (2006) kitabımı oxumanız kifayətdir."

Bəs Nizaməddin müəllim "Müdriklər bunları deməyib" kitabında nə yazıb, oğluna, onun yaşıdlarına, gələcək nəsillərə nələri məsləhət görüb, nələri vəsiyyət edib, hansı fikirləri, düşüncələri təlqin eləyib? Bunu təsəvvür etmək üçün kitabdakı bir neçə kəlama diqqət yetirmək bəsdir: "Ən böyük fəzilət insan haqlarını qorumaq, insanın qəlbinə və təfəkkürünə inam bəsləməkdir." "Məni bicliklə sınamayın, onda qarşınıza fərsiz və sadəlövh bir adam çıxacaq." "Çoxlu kitablar oxuyub alim oldum, amma həyatın mənasını mənə eşq öyrətdi." "Ən rahat yastıq təmiz vicdandır. Düz danış: onda rahat gəzib rahat yaşayacaqsan." "Kişiliyin birinci şərti gözəl ailədir. Ailəsi gözəl olmayan xalqın dövləti gözəl ola bilməz. Ailəni qorumaq — Vətəni və dövləti qorumaq deməkdir." "Əsl kişini xəyanətə vadar edən üç pozğun bacı var: qorxaqlıq, yaltaqlıq və riyakarlıq. Yaltaq adamlardan uzaq ol. Çünki bütün rəzalətlər bir yerə toplanıb yaltaqlığı yaradıblar." "Mən öləndə ağlama. Çünki mən xalq üçün, özü də heç kimə qismət olmayan böyük həyat yaşamışam. Anan öləndə ağla. Çünki o yalnız mənim üçün yaşayıb. Bu, xalq üçün yaşamaqdan böyük fədakarlıqdır." "Ən ağır zərbəni səni tərifləyən adamlardan gözlə." "İnsanı çöldə, bayırda yox, onun öz içində axtarın."...

Nizaməddin Şəmsizadə "Müdriklər bunları deməyib..." kitabındakı oğluna xitabının axırında bütün gələcək nəsillərə Allahdan kömək diləyi ilə yazır: "Bu kitab da Azərbaycana, onu gələcəkdə qoruyacaq nəsillərə dərin ümid və ehtiramla yazılıb. Mən onu Azərbaycanda hər il doğulacaq nəsillər üçün yazmışam. Əgər Allah ömür versə, hər on ildən bir onu yeni fikirlərlə zənginləşdirərək təkrar çap etdirəcəyəm..." Biz də Nizaməddin müəllim haqqındakı, onun "Müdriklər bunları deməyib..." kitabı barəsindəki bu ötəri qeydlərimizi bitirərkən bu müdrik alimə, sadə və səmimi insana uzun ömür, möhkəm can sağlığı, bundan sonra da neçə onilliklər yaşamağı, özünün dəyərli kitabını dönə-dönə təzələməyi, çap etdirməyi arzulayır, gələcək işində, fəaliyyətində ona daha böyük uğurlar diləyirik.

**Habil ƏSƏDOV,**
**"Gündoğar" qəzetinin**
**baş redaktoru,**
**respublikanın Əməkdar**
**jurnalisti,**

**Zabil PƏRVİZ,**
**"Gündoğar" qəzetinin**
**müxbiri, şair-publisist,**
**"Yeni Dünya"**
**mükafatı laureatı**

## El sənətkarlarımız

# UNUDULMAZ NARINC XATUN

Tarixi min illiklərlə ölçülən Azərbaycan mədəniyyətinin və ədəbiyyatının parlaq səhifələrində kişi sənətkarlarla yanaşı qadın sənətkarların da adları öz layiqli yerini tutmaqdadır. Məhsəti Gəncəvi, Xurşid Banu Natəvan, Heyran xanım, Nigar Rəfibəyli, Mirvarid Dilbazi, Mədinə Gülgün və başqa şairə, aşıq, yazıçı xanımların yaradıcılığı xalqımızın milli-mənəvi sərvəti kimi ədəbiyyatımızın qızıl fonduna daxildir.

Qadın sənətkarlardan söhbət düşərkən haqqında xüsusi səhifə açmağa layiq el sənətkarlarından biri də rayonumuzda yaşayıb-yaratmış, adı nəinki ölkəmizdə, hətta onun hüdudlarından kənarlarda hörmətlə çəkilən el sənətkarı Narınc Xatundur.



Narınc Xatun (ortada) "Aşıq pəri" məclisində

1975-ci ildə "Gündoğar" qəzetinin nəzdində "Xəzər nəğmələri" ədəbi birliyi yaradılarkən onun ən nümunəvi üzvlərindən biri də Narınc Xatun oldu. Narınc xanımın aşıq poeziyası üslubunda yazdığı dəyərli qoşmaları, gəraylıları, çarpaz qafiyəli bitkin şeirləri oxucuların marağına səbəb olmuşdu. Bu şeirlərdə ana dilimizin şirinliyi, poetik imkanları bütün gözəlliyi ilə əks olunurdu:

**Gəl məni unutma, könül həmdəmim,**
**Səndədir sevincim, ilhamım, qəmim.**
**Sənsən bu könlümün xoş təranəsi,**
**Susmaz məhəbbətin ülvi nəğməsi.**

Narınc Xatunun şifahi xalq ədəbiyyatına, xalq üslubuna, aşıq poeziyasına hədsiz məhəbbəti və bağlılığı çoxlarında təəccüb və heyrət doğururdu. Haradan idi onda bu qədər eşq, bu qədər həvəs və nəhayət, sənətə qibtəedici sədaqət və bağlılıq:

**Ömür baharını gözündə gördüm,**
**Nəğməni qəlbinin sözündə gördüm.**
**Səninlə çağladım, daşdım çay kimi,**
**Dilləndi qəlbimin ən incə simi.**

Ötən əsrin yetmişinci illərində Narınc Xatun "Hara gedir karvan yolum" adlı bir gəraylı yazdı və əslində bu gəraylı ilə özünün uğurlu ədəbi taleyini müəyyənləşdirdi. Şairə o zaman çoxlarına təəccüblü və inanılmaz görünən bir arzuya, məsləkə qoşuldu. Nağıllarda deyildiyi kimi, əlinə dəmir əsa alıb, ayağına dəmir çarıq geyib qədim saz-sənət ocaqları olan elləri — Qarabağı, Göyçə mahalını, Borçalı mahalını qarış-qarış gəzərək saz çalıb-oxumağı bacaran aşıq qadın və qızları, şairələri başına yığdı, əfsanəvi "Aşıq Pəri" məclisini yaratdı. Ədalət naminə deyək ki, bu işdə ona yaxından dəstək olan öz ciyərparəsi, o zaman rayon partiya komitəsinin katibi işləyən, həyatdan vaxtsız köçmüş Tamella xanım Cəfərovanın xüsusi xidmətləri olmuşdur. O öz anasının bu böyük və müqəddəs işin öhdəsindən gələcəyinə inanırdı.

Az keçmədi ki, "Aşıq Pəri" məclisi dövlət televiziyası və radiosu ilə geniş yayımlandı, bir-birindən uğurlu addımlar ataraq bütün Qafqazda, İranda və Türkiyədə böyük şöhrət qazandı. Bir həqiqəti də, keçmiş olsa belə, unutmaq mümkün deyil. Respublikanın tanınmış alim və yazarlarından iki nəfər "Aşıq Pəri"nin bu böyük uğurlarını və şöhrətini görərək onu, onların təbirincə desək, bu "savadsız" (?!) qadının əlindən almağa, ona özləri rəhbərlik etməyə, daha doğrusu, onun yiyəsi olmağa cəhd göstərdilər. Amma bu fikir heç də onlara başucalığı gətirmədi, el qınağına məruz qaldılar. Hər ay televiziya tamaşaçıları Narınc Xatunun rəhbərliyi ilə "Aşıq Pəri" məclisinin silsilə verilişlərinə baxmağa başladı. Məclis üzvləri — Dilarə və Gülarə Azaflılar, Aşıq Telli Borçalı, Aşıq Zülfiyyə, Aşıq Ulduz, Aşıq Pakizə, Tərlan Göyçəli, Səadət Buta, şairə Xəzangül, Fərqanə Mehdiyeva, Mayqa Mətin, Cığatay... kimi onlarla saz və söz ustaları Narınc xanımın təqdimatı ilə xalq arasında şöhrət tapdılar, öz sənət karyeralarını qurdular, paytaxtda məskunlaşdılar və indi müstəqil sənətkarlar kimi bütün telekanallarda çıxış edir, hətta övladlarına da dəstək olub böyük səhnəyə çıxarırlar. Vaxtilə onları bir-bir tapıb üzə çıxaran və "Aşıq Pəri"yə cəlb edən Narınc Xatun yazırdı:

**Ay pərilər, qurun qala,**
**Axı sarban düşür yola,**
**Qatarlanın sağa-sola, —**
**Hara gedir karvan yolum?!..**

İndi bu sənətkar xanımların bəziləri məşhurlaşandan sonra deyəsən Narınc Xatunu "unudublar". Amma unutmayanlar da var. Xalqımızın sevimlisinə çevrilmiş aşıq Telli Borçalı həmişə Narınc xanımdan öz anası kimi məhəbbətlə söhbət açır, bütün uğurlarını onun adı ilə bağlayır. Eyni zamanda aşıq sənətinin "Qoca qartal"ı Mikayıl Azaflının qızı Gülarə xanım Azaflı da həmişə Narınc Xatundan ürək dolusu, məhəbbətlə danışır. Yaxşı yadımdadır, Narınc xanım Borçalıya, Qazaxa səfərlərindən, Mikayıl Azaflı ilə görüşlərindən çox maraqlı söhbətlər edərdi. Hətta deyərdi ki, qocaman aşıqla birlikdə "Azaflı və Narınc Xatun" dastanını yaradırıq. Bu yaxınlarda aşıq Mikayıl Azaılının qızı Gülarə xanım televiziya ilə bir çıxışında dedi ki, Narınc Xatunun yaratdığı "Aşıq Pəri" məclisinə paralel olaraq atam da kişi aşıqlardan ibarət "Kərəm" məclisi yaratmaq istəyirdi. Təəssüf ki, buna ömrü çatmadı...

Narınc Xatun qədim Göyçə mahalının faciəsini, torpaqlarından didərgin düşən göyçəlilərin fəlakətini ürək ağrısı ilə yaşayırdı:

**Alıb intizarı məni Göyçənin,**
**Yandırır könlümü qəmi Göyçənin.**
**Harda qaldı kefi, dəmi Göyçənin,**
**A qardaş, dərdinə, sərinə qurban...**

Narınc Xatunun və onun yaratdığı "Aşıq Pəri" məclisinin adı min illik Azərbaycan mədəniyyətinin tarixinə saralıb solmayan qızıl hərflərlə yazılmışdır, amma quru tarixə çevrilməmişdir. "Aşıq Pəri" məclisi dünən var idi, bu gün də var, sabah da olacaqdır. İstər rayonumuz, istər bölgəmiz, istərsə də respublikamız Əməkdar mədəniyyət işçisi, ölməz el sənətkarı Narınc Xatunun adını həmişə uca tutacaq və yaşadacaqdır.

**Zabil PƏRVİZ**

## Mina Qəmbərova — 90

# HAMI ONA ANA MÜƏLLİM DEYƏ MÜRACİƏT EDƏRDİ

**"Özüm bu günlərə kül ola-ola**
**Gələcək günlərin pərvanəsiyəm!"**
**S.Rüstəmxanlı**

Hardansa həzin bir mahnı qanadlanıb gecənin qərib sakitliyinə qarışır. Adama elə gəlir ki, bu, mahnı deyil, cənub küləyinin bürkülü axşamlara pənah gətirdiyi xəfif bir mehdir. O sanki ətrafa dalğa-dalğa yayılaraq gecənin lal sükutu qoynunda əriyib yox olmuş həsrətləri soraqlayır. Əslində bu yadigar bir mahnıdır — "Ana mahnısı". Hər nəğmə dərsində heç olmazdı ki, sevimli müəllimimiz onu təkrar-təkrar oxutdurub xəyala dalmasın, kövrəlib qəhərlənməsin. O zaman biz uşaqdıq, elə bilirdik ki, mahnını bizlərə əsl ana nəvazişi göstərən müəllim Mina xanım üçün yazıblar. Biz azyaşlı məktəblilər o vaxt hələ çox şeydən xəbərsizdik. Sinifdə dərsə aid olmayan sual işlətməyə isə cürətimiz çatmazdı. Qorxardıq ki, ürəyinə toxunar, birdən o munis baxışların mehriban çöhrəsi yenə qəfilcə duman selinə bürünər. Bütün kənd adamları, uşaqlı-böyüklü, cavanlı-qocalı ona Ana müəllim deyə müraciət edərdilər. Hələ çox erkən yaşlarından bağlandığı sənətinə müqəddəs bir ana ürəyinin hərarətini, ehtirasını, məftunluğunu hopdurmaqla o bu hörmətə pillə-pillə ucalmışdı. Və bu gün də ailəsinin, elinin, övlad məhəbbətilə sevdiyi şagirdlərinin fikir dünyasında daim oxunan, xatırlanan həzin bir nəğmədir Mina müəllim!

Mina Ayaz qızı Qəmbərova 1924-cü ildə Xıllı rayonunda (indiki Neftçala rayonu) imkanlı bəy ailəsində göz açmışdı dünyaya. Atası Ayaz kişi çox səxavətli, elmə, mədəniyyətə, maarifə xüsusi rəğbət bəsləyən insanlardan biri idi. O, Xıllıda ilk dəfə olaraq şəxsi mülklərindən birini xeyriyyə gecələrinin keçirilməsi üçün ayırmışdı. Burada onun vəsaiti hesabına savad kursları və mədəniyyət dərnəkləri təşkil edilmişdi. Kasıb, imkansız uşaqlara himayədarlıq edərək təhsillərinə, oxuyub maariflənmələrinə maddi və mənəvi dayaq olmuşdu. Belə nəcib işlərin həyata keçməsi və inkişafı üçün çəkdiyi xərclərdən bir bəy olaraq həmişə zövq alardı. Arzusu üç qızını oxudub müəllim, həkim görmək idi. Amma sən saydığını say, gör fələk nə sayır deyiblər. O vaxt gəlib çatdı ki, qara yellər qara maşını onun da qapısına gətirib çıxardı. Və günlərin birində Ayaz kişini də tutub apardılar. On aydan çox gizli zirzəmilərdə dəlilsiz-sübutsuz yatmağa məcbur oldu. Əzablı, məşəqqətli günlərin sonu onunla tamamlandı ki, sən bəy balasısan, dövlətin birinci düşmənisən dedilər. Qısa çəkən məhkəmə prosesindən sonra Ayaz Qənbərova ailələiklə ömürlük azadlıqdan məhrum olunma hökmü oxundu. Ev-eşiklə birgə bütün əmlakı hökumətə keçirildi.

1929-cu ildə 5 yaşlı məsum qızcığaz Mina da ailənin tərkibində məhkumlar üçün ayrılmış xüsusi gəmi ilə Orta Asiya istiqamətinə yol aldı. Ailəyə ilk ağır zərbə də elə onları sürgünə aparan gəmidə dəydi. Dəniz havasından ürəyi sıxılan on beş yaşlı böyük bacısını, ana fəryadına məhəl qoymadan vəhşi keşikçilər ölmüş adı ilə diri-diri suya atıb boğdular. Mina müəllim həmin dəhşətli mənzərəni, hətta məhbus anasının nakam qızının boş yatağı üstündə yanıqlı oxşamasını da ömrünün sonunadək ürək niskili, qəlb döyüntüsü ilə yaşadı. Beləliklə, əvvəlcə Türkmənistanın, sonra Qırğızıstanın və Özbəkistanın qumlu səhralarından başlandı məhbus ömrünün sazaqlı günləri. Sürgünün dördüncü ili Sibirin Tayqa meşələrində keçdi. Dözülməz həyat tərzi burada da ailənin dərdinin üstünə dərd gətirdi. Ortancıl bacısı Xanım ağır ciyər vərəminə tutularaq əlil oldu, ailənin sonbeşik qızı Minanın isə artıq məktəb yaşı ötmək həddinə çatırdı. Şəraitə görə cavabsız qalan suallar önündə bu elə də ciddi maraq kəsb etmirdi. Bir yandan da buralara göndərilən saysız-hesabsız sürgün yatabları məhbusların planlı-plansız yerdəyişmələrinə gətirib çıxarırdı. Məhz belə bir qarışıqlıqda günahsız ailənin sürgünlük həyatı bu dəfə Qazaxıstana köçürülməklə nəticələnir. O zaman hələ səkkiz yaşı yenicə tamam olmuş Minanın burada məktəbə getməsini, üstəlik itkilər əvəzi yeganə qardaşının dünyaya gəlməsini və ailənin azadlığa buraxılmasını uzun sürən fırtınalardan sonra ilk dəfə yenə gözəl günün gəlməsini müjdə verən dan qızartısına bənzətmək olardı.



**Mina xanım ailə üzvləri ilə birlikdə**

1934-cü ilin sonunda Moskvadan gələn ali məhkəmənin xüsusi ekspert komissiyası Mina xanımın ata nəslinin işində heç bir cinayət tərkibi olmaması haqqında arayış verir və bununla da ailə üzvləri bəraət alır. Sürgündən sonra ailə 1940-cı ilədək Xıllıya qayıtmayıb Bakıda yaşayır. Ailənin başçısı Ayaz kişi indiki Azərbaycan Dövlət Neft Akademiyasında təsərrüfat müdiri vəzifəsində çalışır. Kiçik qızı Mina orta təhsilini başa vurub müəllim olmaq haqqında düşünsə də yaxın keçmişin qorxusu hələ tam çəkilib getməmişdi, ali məktəbə qəbulla bağlı qarşıya sədd çəkən maneələr hələ də qalmaqda idi.

1941-ci ilin mayında Minagil on iki illik ayrılıqdan sonra doğma Xıllıya qayıdır. Müharibədən sonra yaxın qohumlarının köməkliyi ilə gənc Mina xanım sənədlərini o zamanın işıqlı, maarifpərvər ziyalılarından olan Şükürbəylinin müdir olduğu Salyan Pedaqoji Texnikumuna verir. Yoxlama və qabiliyyət imtahanlarını əla qiymətlərlə verən Mina texnikuma qəbul olunur.

1948-ci ildə o, texnikumu müvəffəqiyyətlə bitirərək müəllimlik diplomu alır. Və elə həmin ildə də indiki Aşağı Qaramanlı kənd əsas məktəbinə (keçmiş ibtidai məktəb) müəllim təyin olunur. Sonralar bu kənddə ailə həyatı qurduğundan ömrünün sonunadək, qırx il fasiləsiz həmin məktəbdə sinif müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir. Mina müəllim 1957-ci ilədək indiki ADPU-nun filologiya fakültəsində təhsil alsa da, sonradan onu yarıda buraxmaq məcburiyyətində qalmış, dünyaya gətirdiyi dörd övladını tərbiyə edib böyütməyi üstün tutmuşdur.

Taleyin də çarpaz yolları varmış. Bir zamanlar yüzlərlə şagirdindən biri kimi mənim də əlimdən tutub "Ana", "Vətən" sözlərini yazdıran qayğıkeş müəllimim, iyirmi ildən sonra özü məni sinfə təqdim edərək jurnalı yazıb-işləmək qaydasını öyrətmişdir. Qırx illik mənalı ömür tarlasından bəhrələnib həyata vəsiqə alan neçə-neçə sənət sahibi ilk hərfi, ilk cümləni məhz bizim Mina müəllimin dilindən eşitmişdi. Texnika elmləri doktoru, professor Mətləb Əliyevin dediyi "Mina müəllim hər birimizin içindən keçmişə, gələcəyə, xeyirxahlığa, işığa, saflığa, sədaqətə doğru keçən müqəddəs bir yoldur. O bu gün də şagirdləri üçün büllurtək saf mənəviyyat və əxlaq örnəyidir" fikrini sinif müəllimi Rəfiqə Cəbraylova belə davam etdirir: "Ən çox təsəllim budur ki, istəkli müəllimimin şərəfli yolunu davam etdirirəm. Hər dəfə əlimə jurnal alıb sinfə girərkən onun ruhunu anıb, uşaqlara məhəbbətdən yoğrulmuş ömrünü yaşatmağa çalışıram." Aqronom Şükür Ataşovun xatirəsindən: "Körpə yaşlarınmdan anasız qalmışam. Amma ilk dəfə məktəbə gedəndə inandım ki, anasız deyiləm, ana nəvazişini, onun mehr-ülfətini, ətir saçan qoxusunu müəllimimin isti nəfəsində duydum."

Mina müəllimin zəngin pedaqoji təcrübəsi işlədiyi məktəb daxilində məhdudlaşmırdı. O, 1973-1977-ci illərdə Azərbaycan Mərkəzi Müəllimləri Təkmilləşdirmə İnstitutunun rayonda təşkil etdiyi sinif müəllimlərinin ixtisasartırma kurslarına müəllim kimi cəlb olunmuş, burada ana dili təliminin tədrisi metodikasından mühazirələr oxumuş, seminar məşğələləri aparmışdır. Dəfələrlə sinif müəllimlərinin zona üzrə elmi-praktik konfranslarında iştirak edərək təlim məsələlərinə həsr olunmuş maraqlı çıxışları ilə yadda qalmışdır.

On il müəllimimlə bir məktəbdə çiyin-çiyinə çalışdığım illər həyatımın şirin ovqatlı, ən xoş xatirəli bir tarixçəsidir. Mina müəllim fikirli olan anlarda tez-tez köks ötürərək deyərdi: "Zamanın sərt gərdişi saçlarımı vaxtsız ağardıb, üzümdə şırımlar açsa da ümidimi qıra bilməmişdir. Elə məni gələcəyə səsləyən də inamım, ümidlərim olmuşdur. Ömrümün çox hissəsini körpə balalarımızın təlim və tərbiyəsi kimi çətin bir işə həsr etmişəm. Və bu yolda nəyə nail olmuşamsa, ilk öncə əhatəsində yaşadığım insanlara, pedaqoji kollektivə, ailəmə minnətdaram. Cəmiyyətdə özlərinə layiq yer tutan dünənki şagirdlərim və tərbiyə etdiyim övladlarım inanıram ki, hələ neçə illər gələcək günlərimin yaşantıları olacaqlar."

Məsəl var deyərlər: "Ot kökü üstə bitər." Mina müəllimin böyük övladı olan Akif Kərimov ona layiq oğul kimi hələ ötən əsrin əvvəllərində Azərbaycanda xeyriyyəçilik ənənəsinin təməlini qoyanların, Hacı Zeynalabdin Tağıyevlərin, Musa Nağıyevlərin yolunu bu gün "Kür-Xəzər" Xeyriyyə Cəmiyyətinin xətti ilə davam etdirir. Tibb və iqtisad elmləri üzrə iki namizədlik dissertasiyası müdafiə edən bu kamil insan cəmiyyətin prezidenti kimi nəinki ölkə daxilində, hətta onun hüdudlarından kənarlarda, Gürcüstanda, Türkiyədə, Moldovoda, Rumıniyada və digər ölkələrdə yüksək nüfuz və hörmət qazanmışdır. O, həm də dünya azərbaycanlıları konqresində ölkəmizi təmsil edən daimi fəxri nümayəndələrdən biridir. Deyimlərin birində yazılıb ki, yalnız sevən insanlar sevilirlər. İndi bu oğul ocağında böyüyüb ərsəyə çatan Ana müəllimin üç nübar qız nəvəsi, Leylası, Minası, Aynurəsi hər bayram günlərində, cümə axşamlarında nənələrinin ruhu şad olsun deyə şam yandırır, qazan asır, onun işığına toplaşırlar. Deməli, sağlığında gələcəyini yaşayanlar əbədi dünyanın ən xoşbəxtləridir.

Mina müəllimənin digər övladları — İsmayıl, Rauf və Abı Kərimovlar da layiqli insanlardır. İsmayıl Kərimov fəlsəfə elmləri namizədidir. Bu sahədə fəaliyyət göstərməklə yanaşı uzun illər həkim kimi də insanların sağlamlığı keşiyində dayanıb və bu gün də bu xeyirxah işi uğurla davam etdirir. Rauf Kərimov isə ekologiya sahəsini seçib, Neftçala İxtisaslaşdırılmış Mənsəb Hidrometereologiya Müəssisəsinə bacarıqla rəhbərlik edir. Müqəddəs Məkkənin ziyarətindən sonra o eyni zamanda hacı tituluna da yiyələnib. Abı Kərimovun ömür yolu da asan olmayıb. Hərbi sahədə çalışmağa üstünlük verən bu şəxs Çernobıl qəzasının aradan qaldırılmasında fəal iştirak edib, mükafatlara layiq görülüb. İndi təqaüddə olsa da, hərb sənətinə həvəs göstərən cavanlardan dəyərli məsləhətlərini də əsirgəmir. Yaşasaydı bu gün Mina ana təkcə övladları ilə deyil, bu nəsilin layiqli davamçıları olan on nəvəsi, on dörd nəticəsi ilə də fəxr edərdi. Amma yəqin ruhu şaddır. Şaddır ona görə ki, dünyaya gələn nəvələr, nəticələr də öz kökləri üstə pöhrələnir, sabaha qanadlanırlar.

Hazırda "Kür-Xəzər" Xeyriyyə Cəmiyyətinin yerli dayaq şöbəsi Mina müəlimənin çalışdığı məktəblə birlikdə onun 90 illiyi ilə əlaqədar xüsusi tədbirlər planı hazırlamışdır. Bu günlərdə işlədiyi məktəbdə onun rəsm portreti və 40 illik pedaqoji fəaliyyətini əks etdirən "Məhəbbət işığında" adlı foto-stendi asılmışdır. Yaxın vaxtda isə məktəb binasına xatirə lövhəsinin vurulması da nəzərdə tutulmuşdur. Görülən bu işlər indiki nəslin yaxın keçmişin dəyərli insanlarına olan əbədi borcudur. Və bu borc həm də bizim gələcək üçün mənəvi yaddaş tarixçəmizdir. Necə ki, xalq şairi Hüseyn Arif demişkən:

**Qala da qocalar**
**vaxtından əvvəl,**
**Axtaran olmasa,**
**anan olmasa.**
**Qaya da incələr,**
**daş da üzülər**
**İstəyən olmasa,**
**yonan olmasa.**



**Böyükağa**
**MƏMMƏDOV**

# GÜNDOĞAR

№1-2-3-4 (6554) 24 yanvar 2015-ci il

SON SƏHİFƏ


## Dəyərli ziyalı İman Şirəliyevin vəfatından 40 gün ötür

# HƏMİŞƏ ÜRƏKLƏRDƏ YAŞAYACAQSAN

Yetmişinci illərin əvvəllərində Azərbaycan Dövlət Pedaqoji Universitetində Neftçaladan bir oğlan təhsil alırdı: İmanbaxış Şirəliyev. Bütün professor-müəllim heyətinin, tələbə yoldaşlarının sevimlisi olan bu gəncin parlaq gələcəyinə hamı böyük ümid bəsləyirdi. Lakin ali təhsilini başa vuran bu gəncin sonrakı taleyi onu tanıyanların və sevənlərin hamısını sarsıtdı. Bu istedadlı cavan oğlan avtomobil qəzasında öz sağlamlığını itirdi, bütün ömrünü əlil arabasında keçirməyə məhkum oldu.



Dünyada hər bir insan ömrü bütöv bir romanı xatırladır. Hərəsinin orijinal sujet xətti olsa da, giriş hissəsi, düyün nöqtəsi, kulminasiyası, düyün nöqtəsinin açılışı və finalı olur. İmanbaxış Şirəliyev öz ömür yolunu özü yazdı, özü də necə yazdı! Onun taleyinə acıyanların, onu tanıyanların və sevənlərin kədəri və təəssüfü qısa bir zamanda təəccübə və heyrətə çevrildi. Az bir vaxtda rayon ziyalıları içində İmanbaxış yox, İman müəllim kimi tanınan bu gəncin pedaqoji təcrübəsi çox keçmədi özünü göstərməyə başladı. Onun dərs dediyi, hazırlaşdırdığı şagirdlərin xoş sorağı hamını sevindirdi.

Fiziki sağlamlığını itirdikdən sonra tanınan, məşhurlaşan əfsanəvi insanlar haqqında biz yalnız kitablardan, mətbuatdan oxumuş, ekran və efir dalğalarından eşitmişdik. ABŞ Prezidenti Franklin Ruzvelt, hərbi təyyarəçi Aleksey Meresyev, Pavel Korçagin, Nikolay Ostrovski, unudulmaz şairimiz Məmməd Araz və başqaları nəinki bütün sağlam insanları heyrətləndirmiş, hətta qibtə, həsəd hədəfinə çevrilmişlər. Ən yaxın müasirimiz, tanıdığımız və sevdiyimiz İman müəllimin ömür yolunu da müəyyən mənada belələrinə bənzətmək olar. Çox keçmədi İman müəllim dünyanın bir sıra təhsil mərkəzləri ilə canlı əlaqə yaratdı. Stolüstü idmanın şahmat oyunu sahəsində ciddi uğurlara imza atdı, dərs dediyi gənc şahmatçıların səsi, sorağı okeanın o tayından, Braziliyada keçirilən ümumdünya yarışlarından gəldi. Biz, "Gündoğar" qəzetinin əməkdaşları da İman müəllimin hər bir uğurunu sevə-sevə izləyir, ardıcıl olaraq öz qəzetimizdə əks etdirirdik.

İllər bir-birini əvəz edir, çox sağlamlar öz yerində sayır, İman müəllim isə növbəti yeniliklərə, uğurlara imza atırdı. İman müəllim rayonda ilk dəfə kompüter kursları təşkil etdi, intellekt mərkəzi yaratdı, öz bildiklərini həvəslə nəinki uşaqlara, hətta özündən yaşlılara öyrətməyə başladı.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra İman müəllimin fəaliyyət imkanları getdikcə genişləndi. O öz bilik və bacarığını zamanın reallıqları ilə asanlıqla birləşdirərək sübut etdi ki, intellekt sahibi eyni zamanda ciddi iş adamı kimi də fəaliyyət göstərə bilər. Bir sözlə, İman müəllimin fiziki məhdudiyyəti onun fəaliyyət dairəsini nəinki məhdudlaşdıra bilmədi, hətta bir çox sağlam adamların əli çatmayan zirvələrə yüksəldi. İmam müəllim sübut etdi ki, yüksək iradə və həyat eşqi insanı istənilən zirvəyə qanadlandıra bilər, hətta əlil arabasında olsa belə!

Bu gün cismən aramızda olmayan İman müəllim əslində hamımız üçün, gələcək nəsillərimiz üçün bir nümunədir. Belələrinin haqqında nə qədər yazılsa yenə də azdır. Onların yenilməz iradəsi, tükənməz həyat eşqi gələcək nəsilləri daim cəsur və mübariz olmağa ruhlandıracaqdır.

Artıq vəfatından qırx gün ötür. Doğmaların, əzizlərin üçün kədərli, üzüntülü olan bu hüznlü günlərdə sənə Ulu Tanrıdan qəni-qəni rəhmət diləyirik, əziz, unudulmaz İman müəllim!

**"Gündoğar" qəzetinin kolletivi**

# BİTİB TÜKƏNMƏYƏN SEVGİ

## Respublikanın Xalq artisti Mənsum İbrahimova

Sizə yazdığım bu məktubu sadə bir tamaşaçının, yaxud hər hansı bir dinləyicinin ürək sözləri kimi, eyni zamanda ədəbiyyat yollarında ilk addımlarını atan gənc şairin poetik düşüncələri tərzində də qəbul etməyiniz mənim üçün fərəhvericidir. Ecazkar səsinizin sehrinə düşənlərdən biri də mənəm, əziz Mənsum müəllim.

Siz xalqımızın görkəmli ziyalısı, məşhur xanəndəsisiniz. Sizin səsinizdə elə bir ovqat, elə bir ruh vardır ki, onun əsiri olmaya bilmirsən. Radio və televiziyada ifa etdiyiniz mahnılar illərdir ki, sənətsevərlərin qəlbində özünə yurd-yuva qurmuş, heç kəsdə olmayan bu səsin, bu avazın odunda alışan pərvanə ürəklər Sizi daha da sevmiş, Sizə böyük məhəbbət bəsləmişdir.

Oxuduğunuz muğamlar, xalq mahnıları və təsniflər, səhnədə yaratdığınız bir çox obrazlar, eləcə də bəstəkar bəstələri böyük sənətdə sevgi və uğur çırağına çevrilmişdir.

Hörmətli Mənsum müəllim, açıq etiraf edirəm ki, məhz bu günkü qarışıq zəmanəmizdə Sizin kimi dəyərli, daxilən nəcib və xeyirxah, qürur və iftixar hissi ilə yaşayan, xalqın hörmətini, məhəbbətini qazanan sənətkarlara ehtiyac çoxdur:

**Bu necə avazdır, bu necə səda,**
**Elə bil yanıqlı bülbül oxuyur.**
**Sanki durnalar da söyləyir vida,**
**Həsrətdən inləyən könül oxuyur.**



**Bu səsin sehrində nələr var belə,**
**Bu səsi eşidən daş da əriyir.**
**Süzülür gözlərdən yaş gilə-gilə,**
**Dənizlər lal olur, çaylar kiriyir.**
**Bu səsdə əzəmət, bu səsdə vüqar,**
**Dağlar arxasından günəş boylanır.**
**Bu səsin odunda buz da alışar,**
**Bu səsin nurunda yağışlar yanır.**
**Coşqun zəngulələr — çağlar şəlalə,**
**Bu isti nəfəsdə yamac qoxusu.**
**Bu səsdə oyanır bənövşə, lalə,**
**Çəkilir gözlərdən gecə yuxusu.**
**Burda sevgi də var, fərəh də, qəm də,**
**Gör neçə baxışda məhəbbət dinir.**
**Burda xəyallar da bir özgə dəmdə,**
**Bir səs naxışında dünya bəzənir.**
**Bu səsdə doğmalıq, gözəllik, ülfət,**
**Arzunu kamına çatdırar bu səs.**
**Qüdrətdən yaranmış möcüzə, əlbət,**
**Gəl bu sirr yoluna çıxmağa tələs.**
**Bu səsin sahibi Sən olmusan, Sən,**
**Əlimdə qələmim Səndən danışır.**
**Mənsum, bu səs üçün doğulmusan Sən,**
**Sənin də əlinə qaval yaraşır.**
**Hələ bundan sonra — illər uzunu**
**Nə qədər ürəklər ovsunlanacaq.**
**Kim görsə mənim tək bir an üzünü,**
**Özünü ən xoşbəxt insan sanacaq.**

Sizə göndərdiyim bu məktubu və qələmə aldığım bu şeiri bir etiraf kimi qəbul edin. Sizə olan hörmətimin nümunəsi olan ilk kitabım da bir ərməğan olsun.

Əziz Mənsum müəllim, Sizə can sağlığı, uzun ömür, bitib tükənməyən sevgilər arzulayıram.

**Dərin hörmətlə:**
**Zaur ƏRMUĞAN.**
**Neftçala rayonu, Həsənabad qəsəbəsi.**
**10 dekabr 2014-cü il.**

# YENİ ŞEİRLƏR



**Atamalı TALIBOĞLU**

### MƏNƏ GÖSTƏRİN!

Könlümə düşübdür yaman kənd-kəsək,
Kəndə getməliyəm hökmən bu payız.
Dostlardan hal-əhval tutam mən gərək,
Hərənin üzündən öpəm bir ağız.
Budur, kəndimdəyəm, görürəm yenə
Həsrətdən söyüdlər saçını yolub.
Dağlar bürünübdür dumana, çənə,
Meşələr, çəmənlər saralıb, solub.
Soyuyub günəşin isti nəfəsi,
Ağacdan yarpaqlar yerə ələnir.
İlişib budaqda qalıb neçəsi,
Hər biri uşaq tək göydə yellənir.
Düşməsin bir bərkə, çətinə deyə
Yolunu zər-yarpaq eyləyir payız.
Ətrafdan səs gəlir, deyirəm bəlkə
Ceyrandır, ceyran tək mələyir payız.
Bəzən də görürəm durna qatarı
Sıraya düzülüb gedir havada.
Külək dərələrdə qovur suları,
Şəlalə sallanıb qalıb qayada.
Torpaq acgöz kimi udur yağışı,
Şeh, qırov tutubdur cığırı, izi.
Yolların, döşlərin itib naxışı,
Qorxudan güllərin qaçıb bənizi.
Gəlib ötdü payız, gedən payızın
Qəlbimdə çiskini, yağışı qaldı.
Bir də ki, payızla köçən bir qızın
Qəlbimdə ox kimi baxışı qaldı.
Gəzdim hər yerini o kənd-kəsəyin,
Təzədən vurğunu oldun o yerin.
Sevər o yerləri mənim qədər kim? —
Əgər varsa onu mənə göstərin!

### HƏDƏR KEÇİRDİM

Səni düşünürəm, anıram hərdən,
Yadımdan çıxmayır o aylı gecə.
Sanki məhəbbətim tutub əlimdən
Ardınca apardı məni gizlicə.
O gecə çox sakit bir gecə idi,
Gündüzkü səs-küydən qalmamışdı iz.
Bəzən səsimiz də batıb itirdi,
Qorxuya düşürdü ürəklərimiz.
O aylı, ulduzlu gecədən sonra
Mən görə bilmədim səni bir daha.
Arabir gözümü dikib yollara
Ümid bağlayırdım gələn sabaha.
Bilmirdim uzaqsan məndən nə qədər,
Bilmirdim sənətin, işin, gücün nə.
Acılı, şirinli o xatirələr
Yəqin ki, fikrini cəlb edir yenə.
Deyirəm nə ola, bir duyğu kimi
Qəlbinə girəydim, qalaydım orda.
Ya da ki, qəlbinin yaxın həmdəmi
Olaraq bir yuva salaydım orda.
Hərdən də nə ola, bir quş olub mən
Olduğun ünvana, yerə uçaydım.
Görəydim gözünü çəkmirsən məndən,
Eşqimi təzədən sənə açaydım.
Bu arzu, bu istək yaşatdı məni,
Yaşatdı ömrümün sonuna qədər.
Sən demə bu sevgi aldatdı məni,
Ömrümün çoxunu keçirdim hədər.

### DAĞLAR

Yağdı yenə gur yağış,
Sudan bəzəndi dağlar.
Hər ağrıya-acıya
Yaman dözəndi dağlar.
Xətrinə dəyən çağı
Tökülər qaş-qabağı,
Yerlə gedər damağı,
Tez də küsəndi dağlar.
Gəlsə qəzəbi, kini,
Qovar dumanı, çəni.
Görsə yad tək birini,
Yolu kəsəndi dağlar.
Başı buludlu olar,
Yamacı otlu olar,
Quş tək qanadlı olar,
Ərzi gəzəndi dağlar.

### LÖVHƏ

Tutub gül-çiçəyi səhərin şehi,
Bəzisi rəngbərəng, bəzisi gümüş.
Ana təbiətin ətirli mehi
Çəməni bürümüş, çölü bürümüş.
Başlanıb çöllərin toyu-büsatı,
Çaylar dərələri başına alıb.
Hardasa kökündən qopmuş palıdı
Dağ çayı uşaq tək döşünə alıb.
Təzə libasdadır döşlər, ətəklər,
Qurtarmır meşənin pıçıltıları.
Yolunu dağlara salıb küləklər,
Qatıb qabağına sovurur qarı...


# "AQRARKREDİT" SƏHMDAR KREDİT TƏŞKİLATININ ELANI

## "Aqrarkredit" Səhmdar Kredit Təşkilatından kredit almış, kreditin təminatı kimi girov qoyulmuş, krediti qaytara bilmədiyinə görə məhkəmə qətnamələrinə əsasən kredit təşkilatının mülkiyyətinə keçirilmiş aşağıdakı yaşayış evləri və torpaq sahələri satılır:

*(Əvvəli 6-cı səhifədə)*

52.Neftçala rayonu Seyidlər kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 56 olan 9,20 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Cavadov Ziyafət Bahadır oğlu olmuşdur)

53.Neftçala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 41 olan 3,93 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Abbasov Ağasəf Sadıq oğlu olmuşdur)

54.Neftçala rayonu Aşağı Surra kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 58 olan 4,6 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Salmanov Xanbala Ağabala oğlu olmuşdur)

55.Neftcala rayonu Qırmızıkənd kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 7,8 ha torpaq sahəsi ( əmlakın əvvəlki sahibi Həziyev Hidayət Hətəm oğlu olmuşdur)

56.Neftcala rayonu Qırmızıkənd kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 6,67 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi İmanov İlqar İbad oğlu olmuşdur)

57.Neftcala rayonu Qırmızıkənd kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 9,34 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Məmmədov Nizami Kərəm oğlu olmuşdur)

58.Neftcala rayonu Boyat kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 10,48 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Hüseynov Əlovsət Qulu oğlu olmuşdur)

59.Neftcala rayonu Tatarməhlə kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid, bonitet balı 55 olan 12,65 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Qurbanov Qədiralı Zəkulla oğlu olmuşdur)

60.Neftcala rayonu Aşağı Surra kəndində yerləşən ümumi sahəsi 206,4 kv.m, yaşayış sahəsi 64,0 kv.m, həyətyanı sahəsində 25,2 kv.m.təsərrüfat tikilisi, metal darvazası olan, bünörəsi beton olmaqla mişar daşdan tikilmiş, orta təmirli, 1 mərtəbəli 3 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Zeynalov Məhərrəm Nağı oğlu olmuşdur)

61. Neftcala rayonu Bala Surra kəndində yerləşən ümumi sahəsi 65,7 kv.m, yaşayış sahəsi 35,8 kv.m, yardımcı sahəsı 29,9 kv.m, bünövrəsi beton olmaqla çiy kərpicdən tikilmiş, orta təmirli, 1mərtəbəli 2 otaqlı fərdi yaşayış evi (əmlakın əvvəlki sahibi Dadaşov Əli Dadaş oğlu olmuşdur)

62.Neftcala rayonu Xolqarabucaq kəndində yerləşən 3-cü keyfiyyət qrupuna aid bonitet balı 55 olan 9,74 ha torpaq sahəsi (əmlakın əvvəlki sahibi Səfərov Mirələm Mirhəsən oğlu olmuşdur)

**Yaşayış evlərini və torpaq sahələrini satın almaq istəyən vətəndaşlar aşağıdakı ünvanlara müraciət edə bilərlər:**
**Salyan şəhəri, H.Əliyev küçəsi 108,**
**"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının Salyan filialı,**
**əlaqə telefonları: (02125)- 5-22-11,**
**(02125)-5-52-86, (012)-497-50-02 və (012)-538-93-24.**


# BİLDİRİŞ – MƏLUMAT

**Hörmətli vergi ödəyicisi,**

Əgər Siz sahibkarlıq fəaliyyətinin göstərilməsi məqsədilə hər hansı obyekti icarəyə götürüb fəaliyyət göstərirsinizsə, o halda həmin obyektin sahibi ilə icarə müqaviləsi bağlanmalıdır.

Vergi inzibatçılığı məqsədləri üçün hüquqi şəxslə hüquqi şəxs arasında bağlanmış icarə müqaviləsi istisna olmaqla, digər şəxslər arasında bağlanmış icarə müqavilələri notarial qaydada təsdiq olunmalıdır.





**Ödəmə mənbəyində icarə məbləğindən vergini tutan şəxslər ödənilən icarə məbləğindən 14% dərəcə ilə vergini tutaraq gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və "Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi"ni vergi orqanına təqdim etməlidirlər.**

Xatırladırıq ki, vergi qanunvericiliyinin pozulmasına görə gəliri ödəyən hüquqi və fiziki şəxslərə Vergi Məcəlləsi ilə müəyyən edilmiş maliyyə sanksiyaları və faizlər tətbiq edilir.

Əlavə məlumat almaq üçün vergi ödəyicilərinə xidmət mərkəzlərinə və Vergilər Nazirliyinin "195" Çağrı Mərkəzinə müraciət edə bilərsiniz.

***Vergilər Nazirliyi***

Həsənabad qəsəbə sakini Qüdrət Mətləb oğlu Məmmədovun adına verilmiş 10 iyul 2002-ci il tarixli, AON№0447935 nömrəli hərbi bilet itdiyinə görə etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi iş yoldaşları Vasif Əliyevə, anası
**ŞƏFİQƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Neftçala Rayonu İcra Hakimiyyəti başçısı aparatının kollektivi rayon şahmat məktəbinin direktoru
**İMAN ŞİRƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının sədri Anar Cəfərov və aparatın kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yeni Azərbaycan Partiyası Neftçala rayon təşkilatının sədri Anar Cəfərov və aparatın kollektivi iş yoldaşları Müşfiq Məmmədova, atası
**ƏDALƏT MƏMMƏDOVUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rayon maliyyə idarəsinin rəisi Rəşid Manafov və idarənin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rayon təhsil şöbəsinin müdiri Əjdər Kərimov və şöbənin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rayon mərkəzi xəstəxanasının baş həkimi Telman Zahidov və xəstəxananın kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rayon mədəniyyət şöbəsinin müdiri Elmira Kazımova və şöbənin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rayon suvarma sistemləri idarəsinin rəisi Elçin Əsədov və idarənin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Rayon əhalinin sosial müdafiəsi mərkəzinin direktoru Zaur Kərimov və mərkəzin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Gündoğar" qəzetinin baş redaktoru Habil Əsədov və redaksiyanın kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Neftçala şəhər inzibati ərazi dairəsi üzrə nümayəndə Namiq Məmmədov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xıllı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Gülqədəm Mirzəzadə və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Bankə qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə Vaqif Cəlilov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Həsənabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndə əvəzi Əlifağa Əlihüseynov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xolqaraqaşlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Həmid Zeynalov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xolqaraqaşlı kənd bələdiyyəsinin sədri Əlibala Səlimov və bələdiyyənin üzvləri rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xolqarabucaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Aydın Səmədov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Kürkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elşad Əzizov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Boyat kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Asif Qafarov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aşağı Qaramanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Seyran Məmmədov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aşağı Surra kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Elşad Tağıyev və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qırmızıkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Cahangir Cəbrayılov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Qaçaqkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əlverdi Məlikov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xəzər kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İlham Gözəlov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Cəngən kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Əmənulla Ələkbərov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Tatarməhlə kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Fəxrəddin Nəzirov və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yenikənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Abasqulu İsgəndərli və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Sarıqamış kənd inzibati ərazi dairəsi üzrə nümayəndə İldırım Zeynallı və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yuxarı Qaramanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndə Yalçın Abıyev və nümayəndəliyin kollektivi rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yuxarı Qaramanlı kənd bələdiyyəsinin üzvləri rayon icra hakimiyyətinin başçısı İsmayıl Vəliyevə, əzizi
**ŞAGİBƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Gündoğar" qəzeti redaksiyasının kollektivi rayon icra hakimiyyəti başçısı aparatının baş məsləhətçisi Vasif Əliyevə, anası
**ŞƏFİQƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aşağı Qaramanlı kənd ümumi orta məktəbinin kollektivi məktəbin müəllimi
**ƏMRULLA QULİYEVİN**
vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə, yaxınlarına və doğmalarına dərin hüznlə başsağlığı verir.


Baş redaktor H.Ə.ƏSƏDOV

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydə alınmışdır. Şəhadətnamə №268

Ünvanımız: Az 4700, Neftçala şəhəri, H.Əliyev prospekti 38, Telefon: 3-44-03 Mobil: (050) 333-72-30, (055) 669-56-71 H/H: №AZ95AIIB33080019446400258164 VÖİN: 6500044671

Qəzet "GÜNDOĞAR"ın kompüter mərkəzində yığılıb səhifələnmiş və "EKSPRESS" mətbəəsində çap olunmuşdur. Dizayn Fərhad Ağayevin, fotolar Muradındır.

Müəllifin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Tiraj: 750 Sifariş №4 Bir nömrənin qiyməti: 40 qəpik.